# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

e-ISSN: 2789-6919

AEM

AZƏRBAYCAN RESPUBLİKASI

THE REPUBLIC OF AZERBAIJAN

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.864**

**Cild: 3  Sayı: 11**

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**
**Impact Factor: 0.864**

**Volume: 3  Issue: 11**

**Bakı – Baku**
**2023**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
01.03.2021.
Registration № 4336

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
AZ1073, Baku,
Matbuat avenue, 529,
“Azerbaijan” Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**E-mail:**
tedqiqat.1707@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Founder and Editor-in-Chief**

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Redaktor**

**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
m_ilham63@mail.ru

**Editor**

**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature / Azerbaijan
m_ilham63@mail.ru

**Redaktor köməkçisi**

**Şamxal Şabiyev**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
shebiyev85@mail.ru

**Assistant editor**

**Shamkhal Shabiyev**, Azerbaijan Science Center / Azerbaijan
shebiyev85@mail.ru

**Redaktor köməkçisi**

**Magistrant Aytən MƏCNUNLU**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
aytanmacnunzade@gmail.com

**Assistant editor**

**Master Aytan MAJNUNLU**, Azerbaijan Science Center / Azerbaijan
aytanmacnunzade@gmail.com

**Dillər üzrə redaktorlar**

**Prof. Dr. Abbas ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan

**Language editors**

**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA**, Azerbaijan University of Languages / Azerbaijan

**Elmi sahələr üzrə redaktorlar**

**Prof. Dr. Şəhla SƏMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Müseyib İLYASOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəfəq ABDULLAYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan

**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Tərxan CƏBRAYILOV**, Azərbaycan Memarlıq və İnşaat Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zəfər CƏFƏROV**, Azərbaycan Memarlıq və İnşaat Universiteti / Azərbaycan
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

## Editors in scientific fields

**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Museyib ILYASOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Khatira HUSEYINOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Afarin ABBASOVA**, Western Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shafag ABDULLAYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ORUJOVA**, Azerbaijan Medical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Tarkhan JABRAYILOV**, Azerbaijan University of Architecture and Construction / Azerbaijan
**Assoc. Prof. Dr. Zafar JAFAROV**, Azerbaijan University of Architecture and Construction / Azerbaijan
**Dr. Fuad RZAYEV**, Institute of Zoology of ANAS / Azerbaijan

## REDAKSİYA HEYƏTİ

### Humanitar və ictimai elmlər

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Yerden KAJIBEK**, Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nataly MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Elza MOLLAYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Univeristeti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne Amerikan Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖEA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlkin QULUSOY**, Qafqaz Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə

### Təbiət elmləri

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof. Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə

**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Elxan NURİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fərid NAĞIYEV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna

## Riyaziyyat və mexanika elmləri

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səadət KƏRİMİ**, Kral Texnologiya İnstitutu / İsveç

## Texnika elmləri

**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Assoc. Prof. Dr. Mövlud HÜSEYNOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan

# EDITORIAL BOARD

## Humanities and social sciences

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Erden KAJIBEK**, Kazakh Language Academy / Kazakhstan
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Mongolian State University / Mongolia
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N. Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Cihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the UAS / Uzbekistan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Ilkin GULUSOY**, Kafkas University / Turkey
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuk University / Turkey

## Natural sciences

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Nikolay BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Duyghu KILICH**, Amasya University / Turkey
**Prof. Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Ibadulla AGHAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elkhan NURIYEV**, Baku State University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Farid NAGHIYEV,** Baku State University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine

## Mathematics and mechanical sciences

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Saadat KARIMI**, Royal Institute of Technology / Sweden

## Technical sciences

**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Movlud HUSEYNOV,** Azerbaijan State University of Economics / Azerbaijan

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/27/7-11

**Sahib Əliyev**
Mingəçevir Dövlət Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru
sahibaliyev.61@mail.ru

# MƏKTƏBLİLƏRDƏ ÖZÜNƏNƏZARƏT BACARIQLARININ FORMALAŞDIRILMASI YOLLARI

**Xülasə**

Məqalədə məktəblilərdə özününəzarət bacarıqlarının formalaşdırılması yollarından bəhs edilir. Hər bir Azərbaycan vətəndaşında öz fəaliyyətinə nəzarət bacarıqları formalaşdırılmalıdır. Bu keyfiyyətləri isə məktəbdə öyrətmək lazımdır. Məktəblərdə özününəzarət bacarıqlarının formalaşdırılması təlim, tərbiyə və təhsilin ümumi məsələlərinin həyata keçirilməsində böyük əhəmiyyətə malikdir. Bu baxımdan məktəblərdə özününəzarət bacarıqlarının formalaşdırılması yollarının araşdırılması aktualdır. Məqalədə bu məsələyə diqqət ayrılmışdır.

***Açar sözlər:*** *məktəblilər, özünənəzarət bacarıqları, təlim-tərbiyə, təhsil sistemi, təlim prosesi*

**Sahib Aliyev**
Mingachevir State University
Doctor of Philosophy in Pedagogy
sahibaliyev.61@mail.ru

## Ways of forming self-control skills in schoolchildren

**Abstract**

The article talks about the ways of forming self-control skills in schoolchildren. Every citizen of Azerbaijan should have the ability to control his own activities. These qualities should be taught in school. The formation of self-control skills in schools is of great importance in the implementation of general issues of training, upbringing and education. From this point of view, it is important to investigate the ways of forming self-control skills in schools. The article focuses on this issue.

***Keywords:*** *schoolchildren, self-control skills, education, educational system, educational process*

## Giriş

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev təhsilin gələcəyi haqqında demişdir: "Təhsil hər bir ölkənin gələcəyini müəyyən edir. Biz istəyirik gənc nəsil bilikli olsun, savadlı olsun və Azərbaycanın uzunmüddətli inkişafını təmin etsin. Bizim artan iqtisadi və siyasi çəkimiz Azərbaycanı güclü inkişaf etmiş ölkəyə çevirməlidir və bu məqsəd qarşımızda dayanır. Əlbəttə, təhsil məsələlərinə bir daha qayıtmaq istəyirəm: peşəkar, bilikli kadrlar olmadan biz heç bir məqsədə çata bilmərik" (Əliyev, 2008).

Bu fikirləri rəhbər tutaraq respublikamızın orta məktəblərində şagirdlərin ümumtəhsil fənn hazırlığının təkmilləşdirilməsini bir neçə istiqamətdə həyata keçirmək olar. Bu istiqamətlərdən biri də təlim prosesində şagirdlərin elm, bilik, bacarıq və vərdişlərinin formalaşması üçün pedaqoji fəaliyyətin imkanlarını genişləndirən yeni pedaqoji problemlərin həll olunmasıdır. Orta məktəbi bitirən hər bir gənc tədris fənləri üzrə əsas anlayışları bilməli, onu praktikaya tətbiq etməyi, həyat

hadisələrinin gedişinə uyğun olaraq məntiqi mühakimə yürütməyi, fikri nəticələr çıxarmağı, çıxardıqları nəticələrin doğruluğunu sübut etməyi bacarmalıdır. Bir sözlə, Azərbaycan vətəndaşında öz fəaliyyətlərinə nəzarət bacarıqları formalaşdırılmalıdır. Bu keyfiyyətlər həyatda istənilən mütəxəssisə gərəkdir. Bunu isə məktəbdə öyrətmək lazımdır.

Şagirdlərin tədris fənləri üzrə öyrəndikləri hər bir bilik və bacarıqlara öz nəzarətləri təkcə bu və ya digər fənnin tədrisi zamanı deyil, bütün təlim prosesində çox mühüm əhəmiyyət daşıyır. Bu baxımdan fənlərin tədrisi zamanı şagirdlərdə öz təlim fəaliyyətlərinə özlərinin nəzarətini təmin etmək, sonda aldıqları nəticələrin doğruluğunu sübut etməyə onlarda maraq oyatmaq, bu marağı mütəmadi saxlamaq, onların özünənəzarətə qarşı diqqət və fəallığını daim artırmaq xüsusi məna kəsb edir. Bu kimi bütün hallarda isə söhbət şagirdlərdə müxtəlif əqli əməliyyatların sonunda aldıqları nəticələrin doğruluğuna möhkəm inamın əmələ gəlməsindən gedir. Belə bir inam təkcə tədris fənləri üzrə kurikulum materiallarının şüurlu mənimsənilməsində deyil, eyni zamanda əqli təfəkkürün tərbiyəsi prosesində də ən vacib və zəruri şərtlərdən biridir. Ona görə də təlim prosesində fənn kurikulumlarının məzmunu ilə bağlı özünənəzarət priyomlarını mənimsəməyə, aldıqları nəticələrin doğruluğunu sübut etməyə şagirdlərdə tələbat tərbiyə edilməsi vacib pedaqoji problem kimi qəbul oluna bilər. Belə bir tələbat tərbiyəsi, eyni zamanda məktəblilərdə şəxsi inama tələbat tərbiyəsi olmalıdır.

M.Mərdanovun kitabının (“Davamlı inkişaf və təhsil”, Bakı, 2007) məzmununda da şagirdlərin təfəkkürünü və nitqini inkişaf etdirmək məqsədilə öyrənilən elmi anlayışların təhlilində və izahında hər bir addımı əsaslandırmağın vacibliyi göstərilir. Şagirdlər hər bir fikri əməliyyatın seçilməsini əsaslandırmağı, alınan nəticəni izah etməyi və nəticənin düzgünlüyünü yoxlamağı bacarmalıdır (Mərdanov, 2007: 18). Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı kurikulumunda şagird özünənəzarəti ilə bağlı deyilir: “Şagird problemlərin həlli prosesində öz düşüncələrinin və fikirləşmə prosesinin daimi monitorinqini aparmalıdır. Bu növ bacarıqlara aiddir: problemin həlli prosesi qurtarana kimi istifadə etdiyi mühakimə proseslərinin şüurlu monitorinqini aparır; problemin təqdimatının alternativ yollarını axtarır; cavabların məqsədəmüvafiqliyini və ağlabatanlığını yoxlayır” (Mərdanov, 2001: 14). Bu tələb ana dili, Azərbaycan dili, həyat bilgisi fənləri üzrə fənn kurikulumlarında da xüsusi qeyd olunur.

Mövcud təhsil sisteminin qarşısında qoyulmuş bu vacib tələb kiçik yaşlı məktəblilər üçün yazılmış metodik ədəbiyyatda zəif əks olunsa da, lakin yuxarı siniflərə aid metodiki ədəbiyyatda müxtəlif təhsil dövrlərində müəyyən qədər öz əksini tapmışdır: Məsələn, V.M.Bradis göstərir ki, şagirdlərə məntiqi vərdişlər aşılanmasında isbat etməyə hazırlığın aparılması böyük əhəmiyyət kəsb edir. Bunu isə riyaziyyat kursunun müəyyən bölməsi ilə məhdudlaşdırmaq olmaz. Burada vacib məsələlərdən biri çıxarılmış fikri nəticələrin doğruluğunun əsaslandırılmasıdır. Burada söhbət yalnız çıxarılmış nəticənin doğruluğunu sadəcə təsdiq və ya inkar etməkdən getmir. Hər bir təsdiqetmə və ya inkaretmənin özü əsaslandırılmalıdır. Mürəkkəb olmayan isbatları məsələni həll edərkən alınmış həllin doğruluğunun yoxlanması formasında şagirdlərin özlərinə vermək lazımdır və bunu riyaziyyat kursunun istənilən bölməsində həyata keçirmək çox faydalıdır (Mərdanov, 2008: 22).

Deməli, məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması işinin vacibliyini mövcud fənn kurikulumlarının və metodik ədəbiyyatın təhlili də sübut edir.

Təlim prosesində aldıqları nəticələrin doğruluğunu şagirdlərin özlərinin əsaslandırması, sübut etməsi isbatın sadə formasıdır. İsbatetmə isə mürəkkəb təfəkkür prosesidir. Deməli, təlim prosesində şagirdlərin özünənəzarət bacarıqları, aldıqları nəticələrin doğruluğunu sübut etmələri mürəkkəb təfəkkür prosesidir. Ona görə də özünənəzarət şagirdlərdən təfəkkürün gərginləşməsini tələb edir. Bu isə, fikri dağınıq şagirdlər üçün ağırdır. Fikri dağınıqlıq isə ən çox kiçik yaşlı məktəblilərə xasdır.

Demək, özünənəzarət bacarıqlarının ibtidai sinif şagirdlərində formalaşdırılması uşaqların fənlərin tədrisi zamanı fikri dağınıqlığına səbəb olub onların öyrənilən tədris materiallarına qarşı həvəsini azalda bilər. Bu isə təlimin keyfiyyətinin aşağı düşməsinə səbəb olar. Özünənəzarət bacarıqlarının kiçik yaşlı məktəblilərdə formalaşdırılmasının çətinliyindən onun həll olunmazlığı

nəticəsinə gələnlərə həm elmi-pedoqoji ədəbiyyatda, həm də məktəb praktikasında təsadüf olunur. Məsələn, T.N.Polkova əvvəlcə haqlı olaraq hər bir məsələnin həllini o vaxt bitmiş hesab edir ki, onun cavabı yoxlanılsın və düzgünlüyü sübut olunsun. Sonra müəllif tipik bir məsələ götürür və onu həll edir. Alınmış cavabı isə tənlik tərtib edilməsi yolu ilə yoxlayır. (Bradis, 1967: 45). O tənliyi elə bir yolla tərtib edir ki, tənliyin həlli məsələnin özünün həllindən qat-qat çətin olur. Buna görə müəllif belə bir nəticəyə gəlir ki, məntiqi məsələlərin həllində alınan cavabın doğruluğunun yoxlanması məsələni nə düzgün, nə də səhv həll edən şagirdlərə ziyandan başqa heç bir fayda vermir. Ona görə belə tip məsələlərin doğru həll olunduğunu tənlik tərtib edilməsi yolu ilə yoxlamaq lazım deyil. V.Q.Boltyanski isə sübut edir ki, T.N.Polkovanın bu nəticəsi düzgün deyil (Polkova, 1971: 32). İbtidai siniflərdə tənlik tərtib etməklə mətnli məsələlərin həllinin doğruluğunu əlverişli formada yoxlamaq olar.

Lakin o, tənlik tərtib olunmasını T.N.Polkovanın göstərdiyi kimi deyil, daha əlverişli formada təklif edir. O göstərir ki, bu həm çalışmanın həllinin düzgünlüyünü yoxlamaq üçün səmərəli üsuldur, həm də təlimin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərir.

Deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olur ki, fənlərin tədrisi prosesində özünənəzarət bacarıqlarına, alınmış əqli nəticələrin düzgünlüyünün sübut olunmasına ibtidai sinif şagirdlərində tələbat tərbiyə edilməsi sadə və asan məsələ deyildir. Lakin məsələnin çətinliyi, onun həll olunması zəruriyyətini və həll imkanlarını inkar etmir. Əksinə, məsələnin səmərəli həllinin tapılması tələbatını meydana çıxarır.

Tədqiq olunan məsələ ilə əlaqədar məktəb təcrübəsi öyrənilib ümumiləşdirilərək bir qrup müəllimin belə bir mühakiməsinə rast gəlindi: “Riyaziyyatdan misalı (məsələni) şagirdlər özləri həll etmişlər. Cavabı da özləri tapmışlar. Bu onlar üçün aydındır. Onda cavabın doğruluğunu bir daha yoxlamaq, onu sübut etmək əlavə iş deyilmi?” və yaxud: Azərbaycan dili fənni üzrə “da, də” bağlayıcı və şəkilçilərinə aid tərtib olunmuş sözlər (atamda, atam da) və bunlarla bağlı cümlələr düzgündürsə, həmin sözlərin və cümlələrin müqayisəsini təşkil etmək, “da, də”nin nə üçün ayrı və ya bitişik yazılışını bir daha izah etməyi şagirdlərdən tələb etmək artıq işdir. Buna ehtiyac yoxdur” və s.

Müəllimlərin başqa bir qrupu isə belə bir mühakimə yürüdür ki, şagirdin təlim fəaliyyəti zamanı həm də öz fəaliyyətlərinə bir daha nəzarət etmələri, aldığı cavab (nəticə) düzgündürsə, onun doğruluğunu bir daha yoxlamaları və sübut etmələri əlavə vaxtın sərf olunmasına, şagirdlərin fikri yorğunluğuna, tədris materiallarının öyrənilməsinə qarşı şagirdlərin marağının sönməsinə səbəb olmazmı? Bəs, belə bir vəziyyətdə keçdiyimiz dərsin səmərəsi aşağı düşməzmi? (Kazımov, 2003: 46).

Düzdür, ibtidai sinif şagirdlərinin şüuru və təfəkkürü yüksək dərəcədə inkişaf etməyib. Lakin bu, problemin həllinin mümkünlüyünü inkar etmir. Çünki tədqiq olunan problemin həllini şagirdlərin yalnız yaş xüsusiyyətlərində deyil, təlimin qüsurlu priyom və üsullarında da axtarmaq lazımdır. Bu fikri ümumi şəkildə də olsa psixoloji və metodiki tədqiqatların nəticələri də sübut edir. (Makhmutov, 1997: 126).

Psixoloqlardan A.V.Zaporojes, U.V.Ulenkova, habelə Rusiya Dövlət Təhsil Akademiyasının Psixologiya İnstitutu əməkdaşları tərəfindən aparılmış geniş tədqiqatlar sübut edir ki, ayrı-ayrı fikri nəticələr çıxarmaq bacarığı, onun başa düşülməsi, mənimsənilməsi və çıxarılmış nəticələrin doğruluğunu əsaslandırmaq təşəbbüsləri uşaqlarda məktəbəqədər yaş dövrlərindən başlayır. Fikri nəticələr çıxarmaq bacarığı isə düzgün nəticəyə gəlmə prosesinin ilk zəruri elementidir (mərhələsidir). Düzgün nəticəyə gəlmə prosesinin sonrakı mərhələsi isə çıxarılmış fikri nəticəyə nəzarət etmək, onun doğruluğunu yoxlamaq bacarığından ibarətdir. Hər iki mərhələ bir-biri ilə sıx vəhdətdədir. İkinci mərhələ birinci mərhələni tamamlayır.

Bizim fikrimizcə, əqli nəticələr çıxarmaq və onu praktik yoxlamaq vərdişlərinin mənimsədilməsi sahəsində şagirdlər ilə təhsilin istənilən mərhələsində səmərəli işlər təşkil etmək olar. Belə vərdişlərin mənimsədilməsi və formalaşdırılmasına minimum sərhədin qoyulması üçün heç bir əsas yoxdur. Şagirdlərə birinci sinifdən başlayaraq özünənəzarət bacarıqlarını aşılamaq mümkündür. Deyilənlərin ümumiləşdirilməsindən belə bir nəticə çıxır ki, şagirdlərdə fənlərin

tədrisi zamanı özünənəzarət bacarıqlarına, aldıqları nəticələrin doğruluğunu sübut etməyə tələbat tərbiyə olunması bilavasitə praktikadan da irəli gələn tələbdir.

Məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması, o cümlədən aldıqları nəticələrin doğruluğunu sübut etməyə dair zəruri biliklərin mənimsənilmə səviyyəsi təlimin qarşısına qoyulan tələblərə tam cavab vermir. Şagirdlərin böyük bir qismi özünə nəzarət etməyə, aldıqları nəticələrin doğruluğunu sübuta yetirməyə ehtiyac hiss etmirlər. Belə bir ehtiyacı duyan şagirdlərin əksəriyyəti isə aldıqları nəticələrin doğruluğunu sübuta yetirməyi bacarmırlar. Ona görə də məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması üçün aşağıdakı təkliflər zəruridir:

- Məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması, şagirdlərə aldıqları nəticələrin doğruluğunu sübut etmək bacarıqlarının aşılanması baxımından metodik ədəbiyyat məktəblərimizin hazırki tələbini ödəyə bilmir. Bunu nəzərə alaraq bu sahədə metodik ədəbiyyatdan istifadə məqsədəuyğun hesab edilsin;
- Məktəblilərdə fənlərin tədrisi prosesində aldıqları nəticələrin doğruluğunu sübuta yetirməyə tələbatın tərbiyə olunması metodikası ayrı-ayrı fənlərin tədrisinin ümumi metodikasına əlavə edilsin;
- Fənn kurikulumları və dərsliklərin təkmilləşdirilməsi zamanı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılmasına xidmət göstərən, şagirdlərin öz nəticələrinin doğruluğunu sübuta yetirməyi tələb edən praktik və nəzəri çalışmaların miqdarı artırılsın. Məsələn, praktik məsələlər ilk riyaziyyat dərslərində əsas riyazi anlayışlarla və 10 dairəsində toplama və çıxma əməlləri ilə şagirdlərin ilk tanışlığına xidmət edən çalışmalardan bilavasitə sonra verilsin. "100-lük bölməsi"ndə isə əsas hesablama priyomlarının aydınlaşdırılmasına xidmət göstərən çalışmaların arasında öz əksini tapsın;
- Şagirdlərin öz nəticələrinin doğruluğunu sübuta yetirməyi tələb edən nəzəri çalışmalar isə dərslikdəki müvafiq bacarıqların şagirdlərdə formalaşdırılmasına kömək göstərən çalışmalarla bir yerdə verilsin. Bu çalışmaların həlli metodikası dərsliyə əlavədə izah edilsin;
- Fənlərin tədrisi prosesində məktəblilərdə özünənəzarət bacarıqlarına tələbat tərbiyə olunması və özünənəzarət vərdişlərinin formalaşdırılması yollarına dair ayrı-ayrı fənlərin tədrisi ilə bağlı metodik işləmələr hazırlansın və müəllimlərin istifadəsinə verilsin.

## Nəticə

Beləliklə, məktəblilərdə özününəzarət bacarıqlarının formalaşdırılması yollarını müəyyənləşdirərkən bu nəticəyə gəlmək olur ki, təlim və tərbiyə zamanı özünənəzarət bacarıqlarının, o cümlədən aldıqları nəticələrin doğruluğunun şagirdlərin özləri tərəfindən sübut olunmasının çətinliyi, onun öyrədilməsi məqsədlərinin və səmərəli yollarının aydın olmaması, problemin pedaqoji ədəbiyyatda öz geniş həllini tapmaması təlim prosesində məsələnin vacibliyini etiraf etmək üçün kifayətdir. Məktəblərdə özünənəzarət bacarıqlarının formalaşdırılması təlim, tərbiyə və təhsilin ümumi məsələlərinin həyata keçirilməsində də böyük əhəmiyyətə malikdir. Çünki təlim prosesində özünənəzarət bacarığına, aldıqları nəticələrin doğruluğunu sübut etməyə şagirdlərdə tələbat tərbiyə edilməsi şagirdlərdə təfəkkürün köməyi ilə əldə edilən biliklərin düzgünlüyünə inam yaradılmasına xidmət edir. Bu da məntiqi təfəkkürün vacib xüsusiyyətlərinin, əqli nəticənin sübut oluna bilməsinin tərbiyə olunmasıdır. Məntiqi təfəkkür isə bütün fənlərin şüurlu mənimsənilməsi üçün vacibdir.

## Ədəbiyyat

1. Əliyev, İ.H. (2008). Azərbaycanın dövlət siyasətində təhsil prioritet məsələdir. "Azərbaycan müəllimi" qəzeti. 19 sentyabr, № 36.
2. Mərdanov, M.C. (2007). Davamlı inkişaf və təhsil. Bakı: Çaşıoğlu, 12-210 s.
3. Mərdanov, M.C. (2001). Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün proqramlar. Bakı: Pedaqogika, 124 s.
4. Mərdanov, M.C. (2008). Ümumtəhsil məktəblərinin I-XI sinifləri üçün fənn kurikulumları (Riyaziyyat kurikulumu). Bakı: Çaşıoğlu, 96 s.

5. Bradis, B.M. (1967). Oshibki v matematicheskikh rassuzhdeniyakh. Moskva: Prosveshcheniye, 191 s.
6. Polkova, T.N. (1971). Nuzhna li proverka pri reshenii tekstovykh zadach na sostavleniye uravneniy. Matematika ya shkole. № 1, s.45-46.
7. Kazımov, N.M. (2003). Müqayisənin nəzəri və əməli problemləri. Ağlın sönməz məşəli. Bakı: Çaşıoğlu, 96 s.
8. Makhmutov, M.I. (1997). Organizatsiya problemnogo obucheniya v shkole. Moskva: Prosveshcheniye, 240 s.

.

Göndərilib: 21.09.2023 Qəbul edilib: 11.11.2023

DOI: https://doi.org/10.36719/2789-6919/27/12-16

**Yeganə Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru
yeganememmedova.doc@gmail.com

# İNTELLEKTUAL OYUNLAR VASİTƏSİLƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN NİTQİNİN İNKİŞAF ETDİRİLMƏSİNİN İLKİN ŞƏRTLƏRİ

## Xülasə

Oyun uşaqlıq illərinin yol göstəricisidir, oyun prosesində onlar öz təəssüratlarını daha çox ifadə etməyə çalışırlar. Oyun uşağın fiziki inkişafında, həyatı dərk etməsində mühüm rol oynadığı kimi psixoloji inkişafında da özünəməxsus əhəmiyyət kəsb edir. Uşaqda oyun zamanı fəaliyyət, iradi səy formalaşır. Məqsədə müstəqil surətdə nail olmaq, qarşıya çıxan çətinlikləri aradan qaldırmaq uşaq oyununun başlıca məqsədini təşkil edir. Oyun uşağın təfəkkürünün və nitqinin inkişafını təmin edir. Oyun uşağın bu dövrdə nitqi ilə yanaşı, fantaziyasını və yaradıcı qabiliyyətini inkişaf etdirir. İntellektual oyunlar uşaqların nitqinin istər fonetik, istərsə də qrammatik cəhətdən formalaşmasında və lüğət ehtiyatının zənginləşdirilməsində ən yaxşı vasitəsidir. Digər tərəfdən oyunlar uşaqların davranışına, həyat hadisələrinə müəyyən münasibəti tərbiyə edən, onların hərtərəfli inkişafına cavab verən fəaliyyət növüdür.

***Açar sözlər:*** *məktəbəqədər yaş dövrü, intellektual oyun, nitq inkişafı, əsas fəaliyyət, inkişaf yolları*

**Yegana Mammadova**
Azerbaijan State Pedagogical University
PhD in pedagogy
yeganememmedova.doc@gmail.com

## Prerequisites for speech development of pre-school children through intellectual games

## Abstract

The game is a guide of childhood, in the process of playing they try to express their impressions more. The game plays an important role in the child's physical development and understanding of life, as well as its psychological development. Activity and voluntary effort are formed in the child during the game. Achieving the goal at an independent speed and overcoming the difficulties is the main goal of the children's game. The game ensures the development of the child's thinking and speech. The game develops the child's imagination and creativity along with his speech during this period. Intellectual games are the best means of developing children's speech both phonetically and grammatically and enriching their vocabulary. On the other hand, games are a type of activity that nurtures a certain attitude to children's behavior and life events, and responds to their comprehensive development.

***Keywords:*** *preschool age period, intellectual game, speech development, basic activity, ways of development*

## Giriş

Məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafında oyunların böyük rolu vardır. Xüsusən məktəbəqədər yaş dövründə oyun uşağı daha çox cəlb edir, onun əsas məşğuliyyəti olur. Oyun bu dövrdə tərbiyənin başlıca vasitəsidir. Birinci növbədə oyun uşaqların əqli tərbiyəsini inkişaf etdirir, ətraf aləm haqqında təsəvvür və anlayışlarını təkmilləşdirir, dürüstləşdirir və bunun əsasında əqli

qabiliyyətləri formalaşır. Uşaq oynayarkən materialın rəngini, formasını, xassələrini, məkan münasibətlərini, kəmiyyətini öyrənir, bitkilər və heyvanlar haqqında müəyyən təsəvvürlər əldə edirlər. Oyun uşaqlıq illərinin yol göstəricisidir, oyun prosesində onlar öz təəssüratlarını daha çox ifadə etməyə çalışırlar. Oyun uşağın fiziki inkişafında, həyatı dərk etməsində mühüm rol oynadığı kimi psixoloji inkişafında da özünəməxsus əhəmiyyət kəsb edir. Uşaqda oyun zamanı fəaliyyət, iradi səy formalaşır. Məqsədə müstəqil surətdə nail olmaq, qarşıya çıxan çətinlikləri aradan qaldırmaq uşaq oyununun başlıca məqsədini təşkil edir. K.D.Uşinski uşağın oyun fəaliyyəti haqqında belə qeyd etmişdir ki, "əsl həyatda uşaq hələ heç bir müstəqilliyə malik olmayan, həyat axını tərəfindən qayğısız və kortəbii şəkildə cəlb edilən bir məxluqdur. Oyunda isə uşaq yetişən adam olub öz gücünü sınayır, özünün quraşdırdığı şeylər üzərində müstəqil olaraq hakimlik edir" (Cəfərli, 1964: 4).

Uşaq həyatı yalnız müşahidəçi kimi gözdən keçirmir, eyni zamanda həyatda fəal iştirak etməyə çalışır, bu imkanı isə ancaq oyunda tapa bilir. Oyunda uşağın xarakteri tərbiyə edilir, onun tələbi, arzusu və istəyi özünü göstərir. Ona görə də hər uşaq oyuna ehtiyac hiss edir və ona həvəslə aludə olur. Uşaq oyun zamanı öz arzusuna görə "həyatda" iştirak edir, fikir və xəyallarını "həyata" tətbiq edərək onun nəticələrindən həzz alır. Oyun uşağın ictimai həyata qoşulması və onunla fəal surətdə tanış olması üçün böyük vasitədir. K.A.Komenski haqlı olaraq yazmışdır ki, "külək, hava olmadan odunun yanmadığı kimi, oyun olmayanda da uşaq böyüyüb inkişaf edə bilməz" (Əsgərova, 2006: 113). Bu dövrdə oyun uşaqların nitqinə güclü təsir göstərir. Oyunun sözlə müşayiət olunması, hərəkətlərin sözlə ifadə edilməsi, obrazların yaradılması, uşaqlarda lüğət tərkibinin zənginləşməsinə, nitqinin qrammatik cəhətdən düzgün formalaşmasına, eyni zamanda rabitəli şəkildə ifadə olunmasına kömək edir. Tərbiyəçi oyun prosesində lüğət sürətini gözləməli, oyunu suallarla çox yükləməli, uşaqlara suallara diqqətlə qulaq asmalarını və düzgün cavab verməl期ərini təmin etməlidir. Oyunlar həftədə iki məşğələdə 5-7 dəqiqə ərzində, əlavə olaraq gəzinti və müşahidələr prosesində təşkil edilməlidir. Oyunda bu və ya digər vəzifə həll olunarkən təfəkkürün əsas prosesləri inkişaf edir (Həsənov, 2009: 297). Bağça təcrübəsində oyun uşağın əsas fəaliyyəti olaraq mühüm yer tutur. Uşaq oynayarkən fikirləşir, düşünür, yoldaşları və tərbiyəçi ilə məsləhətləşir, bu zaman isə nitq zəruri əlaqə vasitəsi olur. Burada düşüncənin inkişafı ilə əlaqədar olaraq nitq də inkişaf edir. N.Q.Krupskaya uşaqların oyunu haqqında demişdir ki, "oyun məktəbəqədər yaşlı uşaqlar üçün müstəsna dərəcədə əhəmiyyəti vardır. Oyun onlar üçün təlimdir, oyun onlar üçün əməkdir, oyun onlar üçün tərbiyənin ciddi bir şəklidir. Oyun böyüməkdə olan orqanizmin tələbidir" (Kərimov, 1998: 54).

Hər bir oyunda uşaq öz fikirlərini əlaqəli, yoldaşları üçün aydın ifadə etməli, təsirli tərzdə danışmalıdır. Oyun prosesində qarşılıqlı əlaqə, qayda-qanun gözləmək üçün bir-birinin fəaliyyətinə nəzarət, sözlə təsir nitqin inkişafında müstəsna rol oynayır. Oyun nitq prosesinin mürəkkəb və çoxmərhələli bir prosesidir. Adətən, oyunun aşağıdakı mərhələlərini fərqləndirirlər:

*Birinci mərhələ* - oyunun predmeti və atributları ilə bağlı tanışlıq mərhələsidir. Bu, çağalıq dövrünə təsadüf edir. Həmin mərhələ əşyavi-manipulyativ xarakter daşıyıb, uşaqların oyuncaqlarını əli ilə yoxlamasına və ona bələdləşməyə cəhd göstərməsində özünü biruzə verir.

*İkinci mərhələ* - əşyavi oyun prosesi olub birinci ilin axırı, ikinci ilin əvvəllərini əhatə edir. Burada uşaq əşya-oyuncaqla müxtəlif əməliyyatlar aparır.

*Üçüncü mərhələ* - əşyavi əməliyyatlardan süjeti əks etdirən oyunlara keçid mərhələsini təşkil edir ki, bu zaman uşaq müxtəlif alətlərlə əməliyyat aparır.

*Dördüncü mərhələ* - körpəlik dövrünün sonunda özünü biruzə verir. Bu bir növ süjetli-rollu oyuna keçmə ərəfəsi olub, uşağı real həyatda mövcud olanları öz oyunlarında əks etdirmə mərhələsidir.

*Beşinci mərhələ* - məktəbəqədər yaş dövrünün əvvəllərində təşəkkül tapmağa başlayan süjetli-rollu oyunlar mərhələsidir.

Nəhayət, uşağın həyatında mühüm yer tutan və sürətlə formalaşan qaydalı oyunlar mərhələsidir (Hacıyeva, 1992: 45). Məktəbəqədər dövrdə nitq inkişafı üzrə işə nitqin səs mədəniyyəti, uşaqların lüğət ehtiyatlarının zənginləşdirilməsi, qrammatik cəhətdən düzgün nitqə yiyələnmələri, rabitəli

nitqin inkişafı daxildir. Bağçaya yeni qəbul olunmuş uşaqların əksəriyyəti səsləri düzgün tələffüz edə bilmirlər. Tərbiyəçi birinci gündən hər bir uşağın nitq xüsusiyyətini nəzərə almalı, kiçik qrupda nitq üzərində işə ciddi surətdə başlanmasının zəruri olduğunu bilməlidirlər. Bəzən uşaq bağçalarında səslərin düzgün tələffüz edilməsinə diqqət verilmədiyindən səs tələffüzündəki nöqsanlar uşaqlarda vərdiş şəklini alır, uşağın biliklərə yiyələnməsini çətinləşdirir. Tərbiyəçi uşaqlara düzgün səs tələffüzünü öyrədərkən qrupdakı uşaqların nitq xüsusiyyətləri ilə mütləq tanış olmalıdırlar. Səslərin tələffüzü üzrə işlər kiçik qrupdan başlayaraq tədricən mürəkkəbləşdirilməlidir. *Kiçik qrupda* tərbiyəçilər səslərə aid didaktik oyunlar keçirir, sonralar isə oyunlarda sadə səs birləşmələrindən istifadə etməyi öyrədirlər. Tərbiyəçi asan tələffüz edilən səslərin düzgün tələffüzünə nail olduqdan sonra daha çətin (r, k, s, ş,) səslərin tələffüzünə aid oyunlar keçirir. Bu dövrdə uşaqlara düzgün səs tələffüzünü öyrətmək məqsədi ilə aşağıdakı oyunlardan istifadə etmək məsləhət görülür: "Gələn kimdir?", "Qonaqları qarşılayın", "Səsindən tanı", "Hansı şey necə səslənir?", "Avtomobil", "Qaz oyunu" və s. (Cəfərli, 1964: 16).

Orta qrupda uşaqlar ətraf aləmi dərk etməkdə daha çox fəallıq göstərirlər. Bu yaşda uşaqlar demək olar ki, dilimizin bütün səslərini düzgün tələffüz edə bilirlər. Bununla belə tərbiyəçi həmin dövrdə eşitmə qavrayışını, fonematik eşitmənin inkişafı üzrə işi davam etdirməlidir. Tərbiyəçi verilmiş sözdə bu və ya digər səsi tapıb tələffüz etməklə yanaşı, həmin səsin işləndiyi sözləri tapıb uşaqların nitqlərində məşq etdirməlidir. Məsələn: "Nəyin səsidir?", "Dirrikdə nə əkirlər?", "Torbada nə var?", "Maraqlı sözlər", "Uçdu-uçdu" və s. (Qədimbəyova, 1953: 26).

Böyük qrupda isə hər şeyi bilmək həvəsi, müşahidəçilik qabiliyyəti inkişaf edir. Onlar ətrafdakı əşya və hadisələr haqqında mühakimə irəli sürür, onları birləşdirir, ümumidən xüsusiyə, xüsusidən ümumiyə keçməklə əqli nəticə çıxarır, səbəb-nəticə əlamətlərini müəyyənləşdirirlər. Bu dövrdə tərbiyəçi "Müxtəlif sözlər deyək", "Ətrafda nə qışqırır?", "Hansı səs itib?", "Radio", "Üç söz de", "Kim çox hərəkət adı deyəcək" və s. oyunlardan istifadə etməklə uşaqların nitqinin düzgün inkişafına şərait yaratmış olar (Kərimov, 1998: 179).

Məktəbəhazırlıq qrupunda uşaqlarda fonematik təhlil bacarığı formalaşır. Artıq onlarda səs və hərf tərkibini duymaq, sözləri hecalara ayırmaq, hecada hər bir səsin necə səsləndiyini hiss etmək vərdişi yaranır. Bu dövrdə səslərin tələffüzünü, xüsusilə, səslənməsinə görə bənzər səslərin fərqləndirilməsi üzrə məşqlərin aparılması vacibdir. Çünki savad təliminə hazırlıq dövründə sözdə səslərin fərqləndirilməsi, sözlərin hecalara ayrılması üzrə vərdişlər mühüm əhəmiyyət kəsb edir.

Bu zaman "Kim çox əşya adı deyər", "Söz seç", "Cümləni tamamla", "Sözü tap", "Hər yuvadan bir söz", "Söz zənciri" və s. oyunların keçirilməsi məqsədə uyğundur (Cəfərova, 1976: 94).

Məktəbəqədər yaş dövründə uşaqların nitqinin inkişaf etdirilməsinin ikinci mərhələsi lüğət ehtiyatının zənginləşdirilməsi və dəqiqləşdirilməsi mərhələsidir. Bu dövrdə uşaqlar öz fikirlərini başqalarına çatdırmaq üçün imkan daxilində söz ehtiyatından istifadə etməyə çalışırlar. Uşağın bu dövrdə lüğət ehtiyatı nə qədər zəngin olarsa, öz fikirlərini müstəqil izah etməyə, başqaları ilə ünsiyyət saxlamaqda o qədər də çətinlik çəkməz. Tərbiyəçi uşaqların lüğət ehtiyatını zənginləşdirmək üçün hansı oyunlardan istifadə edəcəyini qabaqcadan müəyyənləşdirib, tərbiyə işinin planına daxil etməlidir. Üç yaşından etibarən tərbiyəçi lüğət üzrə işi əsasən süjetli-rollu oyun şəklində təşkil edir. Bu prosesdə tərbiyəçi əşya adlarını öyrətməklə yanaşı, həmin sözləri uşaqların fəal lüğətinə daxil olmasını təmin etməlidir. Oyun prosesində uşaqların öyrəndikləri sözlər dəqiqləşir, formalaşır. Bu zaman məşğələlər üçün elə əşyalar seçilməlidir ki, onun bir neçə hissəsi olsun. Uşaq əşyanı bütövlükdə qavrayıb, adını, nəyə lazım olmasını dedikdən sonra onu hissələrinə ayırsın və xüsusiyyətlərini söyləsin. Beləliklə, ən mühüm xarici əlamətlərindən hissələrinə o qədər də mühüm olmayan əlamətlərə doğru gedə bilsinlər. Bu məqsədlə "Sehirli torba" oyunundan istifadə etmək olar. Bu zaman torbanın içinə müxtəlif ev əşyaları, oyuncaqlar, əşya şəkilləri qoyulur. Tərbiyəçinin təklifi ilə uşaqlar növbə ilə əlini torbaya salıb bir əşyanı tutur, adını, böyüklüyünü, formasını və bir neçə xassəsini deyir. Ola bilər ki, əşyanı torbadan çıxarandan sonra onu təkrar etsin, bu zaman tərbiyəçi ona düzəliş verir. Torbadan çıxarılmış əşyanın əlamət və keyfiyyətini daha çox kim sadalayarsa oyunun qalibi o hesab olunur. Uşaqlarda müəyyən vərdiş yarandıqdan sonra oyunu bir qədər mürəkkəbləşdirərək tapmaca xarakteri vermək olar.

Beş-altı yaşlı uşaqlarda lüğət ehtiyatının zənginləşdirilməsi və ana dilini daha da mükəmməlləşdirmək üçün oyunlardan geniş istifadə olunur. Bu dövrdə uşaqlar düzgün və aydın cümlələr qurmağı, təsəvvür etdikləri əşyaları bir-birindən keyfiyyətinə görə fərqləndirməyi bacarmalıdırlar. Tərbiyəçi uşağa yeni söz öyrətməklə kifayətlənməməli, həm də uşağa öz söz ehtiyatından geniş istifadə etməyi, fikri daha düzgün ifadə etmək üçün passiv söz ehtiyatını aktivləşdirməyi öyrətməlidir. Bu zaman uşaqlara "Nağıl düzəlt", "Məktəbə qəbul", "Meyvələri yarpağından tanı" oyunlarının keçirilməsi daha məqsədə uyğundur. Bu dövrdə uşaqların oyunları mövzu etibarı ilə müxtəlif, dolğun, məzmunlu formada və oyunun iştirakçılarının qarşılıqlı münasibətinə görə mürəkkəbləşir. Böyük yaşlı uşaqlar kiçik yaşlı uşaqlara nisbətən oyun zamanı daha çox birləşir və oyunun məzmunu ilə əlaqədar olaraq məsləhətləşir və özləri oyun üçün lazım olan şəraiti yaradırlar. Oyunun məzmununun inkişafı hər şeydən əvvəl onun tematikasının genişləndirilməsindən çox asılıdır (Hacıyeva, 1992: 12).

Məktəbəqədər yaş dövründə uşaqların nitqinin qrammatik cəhətdən düzgün təşkilini həyata keçirmək üçün oyun prosesinin imkanlarından düzgün istifadə olunmalıdır. Beş yaşlı uşağın danışığında tez-tez fellərin təhrif edilməsinə, cəm şəkilçisinin düzgün işlədilməməsinə rast gəlirik, bəzən bu, uşaqda adət şəklini alır. Buna görə də tərbiyəçi oyun prosesində uşağa düzgün cümlə qurmağı, suallara tam cavab verməyi, oyuncaqları təsvir edərkən, hekayə, nağıl söyləyərkən isimdən düzgün istifadə etməyi öyrətməlidir. Eyni zamanda tərbiyəçi çalışmalıdır ki, uşaq danışarkən intonasiyaya riayət etsin. Tərbiyəçi uşaqlarla cümlənin sözlərə ayrılması və sözlərdən cümlələrin tərtibi üzrə müntəzəm iş aparmalıdır. Bu işə böyük qrupdan ilin ikinci yarısından başlamaq və onu getdikcə mürəkkəbləşdirmək lazımdır. Bu məqsədlə "Canlı söz" oyununun keçirilməsi daha yaxşı nəticə verir. Tərbiyəçi cümlədəki sözlərin sayı qədər uşağı qrup qarşısına çağırıb hər birinə cümlənin bir sözünü götürməyi təklif edir. Sonra uşaqlar növbə ilə götürdüyü sözü deyir və soldan sağa düzülürlər. Hər kəs əvvəlki yoldaşının əlindən tutur, nəticədə cümlə alınır. Ola bilər ki, uşaqlar dağılışıb daha sürətlə yenidən düzülsünlər. Bu zaman oyunda iki mühüm xassə: cümlədə sözlərin ardıcıllığı və cümləyə daxil olan hər bir sözün ayrılıqda uşaqlara öyrədilməsi (Kərimov, 1983: 76).

Məktəbəhazırlıq qrupunda uşaqlar qrammatik cəhətdən daha mükəmməl, sintaktik konstruksiyalı tapşırıqları yerinə yetirməyə hazır olmalıdırlar. Bütün bu işlərin düzgün təşkili uşaqların dialoji və monoliji nitqini inkişaf etdirməyə əsas verəcəkdir. Bu dövrdə oyun fəaliyyəti içərisində gələcəkdə aparıcı rola malik olacaq təlim fəaliyyəti də əmələ gəlməyə başlayır. Əlbəttə, təlim heç də oyundan nəşət etmir: o, oyun fəaliyyətinə yaşlılar tərəfindən daxil edilir. Ancaq məktəbəqədər yaşlı uşaq təlimə bir növ müəyyən qaydaları olan rollu oyun kimi yanaşır, lakin bu qaydaları yerinə yetirərkən o, özü də hiss etmədən elementar təlim bacarıqlarını mənimsəyirlər. Bundan sonra onlarda ilk təlim bacarıqları və oxumağa meyil özünü biruzə verir.

## Nəticə

Məktəbəqədər yaşlı uşaqlarla biz izahlı-illüstrativ, problemli təlim metodlarını tətbiq edirik, lakin bu dövrdə uşaqların aparıcı fəaliyyət növü olan oyunlardan da geniş istifadə edilir. Oyunun köməyi ilə təlimi şən, cəlbedici və uşaqlar üçün həyati zəruriyyət kimi tətbiq etməyə çalışırıq. Uşaq oyunda - ətraf aləmi, insanlar arasında qarşılıqlı münasibəti dərk edir, yaradıcı tələbatını və idrak marağını həyata keçirir.

Oyun uşağın təfəkkürünün və nitqinin inkişafını təmin edir. O, qayda üzrə hərəkət etməyi, qarşıya çıxan çətinliyə uyğun fəaliyyətini planlaşdırmağı və idarə etməyi öyrənir. İntellektual oyun uşağın bu dövrdə nitqi ilə yanaşı, fantaziyasını və yaradıcı qabiliyyətini inkişaf etdirir. Oyun uşaqların nitqinin istər fonetik, istərsə də qrammatik cəhətdən formalaşmasında və lüğət ehtiyatının zənginləşdirilməsində ən yaxşı vasitədir. Digər tərəfdən oyunlar uşaqların davranışına, həyat hadisələrinə müəyyən münasibəti tərbiyə edən, onların hərtərəfli inkişafına cavab verən fəaliyyət növüdür. Belə mühüm fəaliyyəti düzgün yönəltmək və bir üsul kimi pedaqoji təcrübədə nitq inkişafı üçün istifadə etmək biz tərbiyəçilərin məharətindən asılıdır. Təcrübə onu göstərir ki, istər bağçada aparılan tərbiyə-təlim işi, istərsə də ailə və bütün ətraf mühit uşağa təsir edir. Tərbiyəçilər və ailə

tərəfindən uşağa müvafiq şərait yaradılarsa alınan təəssüratlar oyunlarda öz əksini tapar. Bu isə həqiqətən uşağın hərtərəfli inkişaf etməsinə, xarakterinin formalaşmasına və xüsusən nitqinin inkişafına təsir edə bilər.

**Ədəbiyyat**


1. Cəfərli, H. (1964). Oyun zamanı bağçayaşlı uşaqların nitq inkişafı. Bakı: "Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı" nəşriyyatı, 51 s.
2. Əsgərova, R. (2006). Məktəbəqədər yaşlı uşaqlarda rabitəli nitqin inkişafı. Bakı: "Hərbi" nəşriyyat, 160 s.
3. Həsənov, A.M. (2009). Məktəbəqədər pedaqogika. Bakı, "Nasir" nəşriyyatı, 374 s.
4. Kərimov, Y.Ş. (1998). Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı, 217 s.
5. Hacıyeva, Ə.H. (1992). Məktəbəqədər yaşlı uşaqların nitq inkişafı. Bakı: Maarif, 107 s.
6. Qədimbəyova, G. (1953). Uşaq bağçasında didaktik oyunlar (metodik məktub). Bakı, 41 s.
7. Cəfərova, Ş. (1976). Uşaq bağçasında qaydalı oyunlar. Bakı: Maarif, 117 s.
8. Kərimov, Y.Ş. (1983). Uşaq bağçasında nitq inkişafı. Bakı: Maarif, 163 s.


Göndərilib: 28.08.2023 Qəbul edilib: 01.11.2023

DOI: https://doi.org/10.36719/2789-6919/27/17-23

**Günel Seyidzadə**
Akademik Həsən Əliyev adına Naxçıvan Kənd Təsərrüfatı Elmi Tədqiqat İnstitutu
Aqrar elmlər üzrə fəlsəfə doktoru
g-seyid@mail.ru
**Əli Quliyev**
Akademik Həsən Əliyev adına Naxçıvan Kənd Təsərrüfatı Elmi Tədqiqat İnstitutu
Magistrant
aliquliyev067@gmail.com

# GÖRÜNMƏZ ACLIQ

## Xülasə

Dünyada insanların istifadə etdiyi qidalar təxminən 50 minə yaxındır ki, bunlardan 15 ədədi isə günlük qidamızın əsasını təşkil edir. Gündəlik rasionumuzda olan qidaların lif xüsusiyyətindən asılı olaraq aclıq hissi hiss etmirik. Lakin qidalı elementlərin gizli aclıq çatışmazlığı ilə üz-üzəyik.

Dünyanın fərqli coğrafi mövqeyindən asılı olaraq görünməz aclığın əlamətləri fərqlidir. İnkişaf etməkdə olan ölkələrin bu çatışmazlığa çox önəm verməməsi nəticəsində erkən ölümlərə, müxtəlif xəstəliklərə, ana bətnində olan uşaqların fiziki məhdudiyyətli doğulmasına, erkən yaşlanmaya, sümüklərin deformasiya uğraması kimi saysız əlamətləri saymaq olar. İnsan bədənində toplamda 94 kimyəvi maddə vardır ki, 61 ədədini yediyimiz qidalardan, 33 ədəd maddəni isə havadan, sudan, torpaqdan, qumdan və s. olmaqla alırıq. Bu elementlərdən hər hansı birinin olmaması digərlərinə əks təsir göstərir. Hazırda Respublikamızda da bu çatışmazlıqlar vardır və görünməz aclığa səbəb olan əsas faktor isə torpağın fiziki-kimyəvi xüsusiyyətləridir.

***Açar sözlər:*** *dünyada görünməz aclıq, Azərbaycanın torpaq xüsusiyyətləri, Azərbaycanda görünməz aclıq, biofortifikasyon (biozənginləşdirmə), bitkilərdəki qida elementlərinin antaqonistikası və sinerjikası*

**Gunel Seyidzade**
Nakhchivan Agricultural Scientific Research Institute n/a academic Hasan Aliyev
PhD in Agricultural sciences
g-seyid@mail.ru
**Ali Guliyev**
Nakhchivan Agricultural Scientific Research Institute n/a academic Hasan Aliyev
Master student
aliquliyev067@gmail.com

# Invisible hunger

## Abstract

The total number of foods we eat in the world is about 50 thousand. However, 15 of them are the basis of our daily food. We do not experience hunger depending on the fiber content of the food we eat daily.

However, we face a hidden hunger - the lack of nutrients. Signs of invisible hunger are different depending on the different geographical location of the world. As a result of improving countries not paying much attention to this deficiency, we can count numerous symptoms such as early deaths, various diseases, birth of children in the womb with physical limitations, early aging, and deformation of bones. There are a total of 94 chemical substances in the human body. We get 61 of them from the food we eat, and the rest 31 of them from the air, water, soil, sand, etc. The absence of any of these elements has a negative effect on the others. These problems are showing themselves also in Azerbaijan as well. The main factor that causes invisible hunger in Azerbaijan is the physical and

chemical properties of the soil. Whether the soil of Azerbaijan being poor in terms of mineral substances or farmers' non-compliance with agrotechnical rules is the major cause of the invisible hunger.

***Keywords:*** *invisible hunger in the world, soil characteristics of Azerbaijan, invisible hunger in Azerbaijan, biofortification (biofortification), antagonism and synergy of nutrients in plants*

## Giriş

*"Her zaman yapan söyleyenden üstündür".*
*Mustafa Kaplan*

Müasir dövrdə dünyamızın ən aktual problemlərindən biri də görünməz aclıqdır. Görünməz aclıq, əsasən, qidamızı təşkil edən bitkilərin qida elementlərinin çatışmazlığı nəticəsində ortaya çıxır. Dünyada insanların istifadə etdiyi qidalar təxminən 50 minə yaxındır ki, bunlardan 15 ədədi isə günlük qidamızın əsasını təşkil edir. Bu qidaların əsasını dənli taxıl bitkilər və dənli paxlalı bitkilər təşkil edir. Coğrafi mövqeyinə görə tələbatın dəyişdiyi qidaların əsasını buğda tutur. Sonrakı sırada lobya, düyü, kartof, qarğıdalı və s. təşkil edir. Bu gün qida çatışmazlığı dünyanın 90 ölkəsində mövcuddur, onlardan 37-si Afrikadadır. Asiyada 300 milyondan çox, Afrikada isə 75 milyon olmaqla ümumi dünyada 400 milyon insan aclıq təhlükəsi ilə üz-üzədir (OCDE, 1984: 20). Dünyada kənd təsərrüfatına yararlı torpaqların miqdarı 27 milyon kvadrat kilometr təşkil edir ki, əkilən torpaqların 20%-i və suvarılan ərazilərin 33%-i duzluluqdan yararsız vəziyyətə düşmüşdür.

Dünyada əsas qidanın şahı kimi bilinən buğdanın torpaqdan mənimsədiyi qidaların yetərsiz olması nəticəsində dünya insanlarının günlük protein tələbatının tam ödənilə bilməməsi bir çox problemlər əmələ gətirir. Bitkilərdə 17 əsas qida elementlərinin hər hansı birinin çatışmazlığı yarandıqda digərlərinin olmağı çox özünü göstərə bilmir. Hər hansı qida elementinin çatışmazlığı digərlərinin torpaqdan alınmasına və məhsuldarlığın düşməsinə təsir göstərir.

Dünyada 2 milyarddan çox insan əsas olaraq dəmir (Fe) və sink (Zn) elementinin çatışmazlığından əziyyət çəkir (Huang, Wang, Yamaji, Ma, 2020: 825). Zn çatışmazlığı ishal, pnevmoniya (ağciyər ocaqlarının iltihabı), uşaqlarda boy artımının zəifləməsi (boyu kiçik olaraq qalır), yeni doğulmuş uşaqlarda əsasən beyin hüceyrələrinin inkişaf etməməsi kimi problemlərə səbəb olur.

Təcrübələr göstərmişdir ki, cowpea bitkisində ən yüksək Zn konsentrasiyası 30,1 mq / kq-1 olmuşdur, hansı ki, üzvi qida maddələrindən mineral gübrə ilə birlikdə istifadə edilmişdir. Və bu 26,9 g / ha−1 Zn qəbuluna uyğun gəlir (Manzeke, Mtambanengwe, Nezomba, Watt, Broadley, Mapfumo, 2017: 236).

Dünyada görünməz aclığa qarşı ən geniş yayılan metod: genetik və aqronomik biofortifikasyondur.

Genetik biofortifikasyonda çeşidlər arasında hər hansı qida çatışmazlığı qarşısında özündə ən çox toplayan bitkilər seçilir. Buna misal olaraq buğdada Zn elementini özündə digər sortlara nəzərən ən çox toplayan çeşid becərilir. Buğdanın (Triticum aestivum L. və T. Durum Desf.), düyü (Oryza sativa L.), qarğıdalı (Zea mays L.), manyok (Manihot esculenta Crantz), lobya (Phaseolus vulgaris L.) və kartof (Solanum tuberosum) mikro elementlə zənginləşdirilmiş xüsusiyyətlərinə görə beynəlxalq genomları yoxlanılmışdır (Graham, Welch, Bouis, 2001: 112). Aqronomik biofortifikasyon isə hər hansı bir qida elementinin sonradan bitkinin kökdən, yarpaqdan, yarpaqdan və kökdən verməklə zənginləşdirilməsidir. Dünyada ən geniş yayılan metod aqronomik biofortifikasyondur. Bu işləri dünya üzərində geniş miqyasda aparan şəxslərdən biri də Prof. Dr. İsmail Çakmakdır. Dünya üzərində Zn çatışmazlığı araşdırmaları ilə Türkiyədə, Asiyada, Avropada, Hindistanda apardığı uğurlu tədqiqatları görünməz aclığın aradan qaldırılmasında öz töhfəsini vermişdir.

ELMİ TƏDQİQAT Beynəlxalq onlayn elmi jurnal. İmpakt Faktor: 0.864. 2023 / Cild: 3 Sayı: 11 / 17-23
SCIENTIFIC RESEARCH International online scientific journal. Impact Factor: 0.864. 2023 / Volume: 3 Issue: 11 / 17-23 e-ISSN: 2789-6919




**Şəkil 1. Dünyada əkilən torpaq həcmi (9)**

## Görünməz aclığa səbəb olan amillər

Azərbaycanda torpaq növ müxtəlifliyindən asılı olaraq torpaqların kimyəvi tərkibi də dəyişməkdədir. Torpaqlarımız yarandığı süxurlardan və gillilik dərəcəsindən asılı olaraq qida elementlərinin bitkilər tərəfindən alınmasına bir çox amil təsir edir.

Azərbaycanın görünməz aclığının əsas səbəbi torpaqların qidalılıq dəyərinin qeyri-stabil olmasıdır. Minimum qanunu: Bitki böyüməsi torpaqda ən az olan elementdən asılıdır. 1840-cı ildə Liebig tərəfindən irəli sürülən bu qaydaya görə, bitkilərin böyüməsi onların ehtiyac duyduqları və torpaqda ən az olan qida maddələrindən asılıdır (*Şəkil 2*). Başqa sözlə, bitkilərin inkişafı torpaqda olan minimum qida elementi ilə məhdudlaşır.

Torpaqdakı minimum qida elementinin azot olduğunu nəzərə alsaq, nitratın ($NO_3$) miqdarından asılı olaraq bitki inkişafı dəyişir. Əvvəlcə yalnız bitkilər üçün irəli sürülən Liebig qaydası sonralar bütün canlılara və bütün ekoloji amillərə tətbiq olundu. Buna uyğun olaraq, hər hansı bir orqanizmin inkişafı üçün digər amillər əlverişli olsa belə, məhdudlaşdırıcı amil ən mənfi amildir.

Humusun kasad olması, torpaqda olan mikro elementlərinin yetərli miqdarda olmaması, düzgün becərmə texnologiyasına əməl edilməməsi, gübrələrin ya normadan çox aşağı, yada çox yuxarı istifadəsi, torpağın fiziki xüsusiyyətlərinin qida elementlərinin alınmasına mənfi təsir etməsi, çox az bölgələrimizdə rastlansa da həddindən artıq yağıntıların hesabına torpaqda olan Ca, Mg və digər mikro və makro elementlərinin yuyularaq qrunt sularına qatılması kimi bir çox faktor təsir edir. Bildiyimiz kimi, digər qida elementləri ilə müqayisədə azot (N) torpaqda süxur şəklində (mineral) olmur. Humusun 10%-ni təşkil edən azotun aşağı olması nəticəsində əsas qidamızı təşkil edən buğdada protein dəyəri xeyli miqdarda aşağı düşür. Coğrafiyamızda ən az rast gəlinən elementlərdən biri də Zn-dir. Belə görünür ki, dünya kənd təsərrüfatı torpaqlarının 2/3-də sink çatışmazlığı var. Torpaqda olan Zn elementi pH-ın 5.5 ilə 7 arasında dəyişdiyi hər bir rəqəm üçün bitkilər tərəfindən mənimsənilməsi 30 dəfə azalır. Zn elementinin torpaqda yetərli miqdarda olmaması istər dənli taxıl bitkilərində, istərsə də meyvə bağlarında həm məhsuldarlıq itkisinə, həm də ki bitkilərin və ağacların soyuq almasına səbəb ola bilər.




**Şəkil 2. Liebig çəlləyi (12)**

Sinkin torpaqda təsir effektinə baxarsaq, Zn-nin 2.5 kg / ha-1 şəklində torpağa verilməsi nəticəsində maksimum məhsuldarlıq qeydə alınmışdır ki, bu isə 59.7% artıma bərabərdir (Nayak, Adhikary, Pattnaik, Pal, 2020: 2311).

Əlverişsiz torpaq şəraitində bitkilərin torpaqdan ala bilmədiyi qida elementindən biri də dəmirdir (Fe). Dəmir torpaqda 2 və 3 oksid formasında olur. Bitkilər isə dəmir 2 oksid formasında ala bilir. Torpaq şəraitinin əlverişsiz olması nəticəsində, yəni pH (potensial hidrogenin) yüksək olması zamanı dəmir bitkilərin ala biləcəyi formadan çıxaraq bitkidə dəmir çatışmazlığına stimul yaradır. Dəmir torpağın gillilik dərəcəsindən asılı olaraq və 2 və 3 oksid formasında torpağa rəng vermə xüsusiyyətinə malikdir. Əgər dəmir 3 oksid formasındadırsa onda torpaq qırmızı rəngə çalacaqdır ki, bu da əlverişsiz vəziyyət hesab edilir. Lakin dəmirin 2 oksid formasında olması torpağa şabalıdı yəni qara rəngə çalma xüsusiyyətini verməsi torpağın potensial hidrogenindən asılı olaraq qalmaqdadır. Torpağın pH-nı dəyişmək qeyri mümkündür. Ancaq bu hallar yarandıqda bitkilərin kökünün yerləşdiyi təbəqəsində rizosfer pH-nı endirə bilərik. Bunun üçün isə kimyəvi birləşmələrdən istifadə edilməlidir. Torpaqda antaqonistik vəziyyətin yaranmasında başlıca rolu oynayan elementlərdən biri də Zn və Fe (sink və dəmirdir) elementidir. Torpağa Fe verilməsi bitkinin torpaqdan ala biləcəyi Zn elementinə təsir edərək zəif alınmasına səbəb olur. Bu xüsusiyyət antaqonistik xüsusiyyət olaraq bilinməkdədir.

İnsan qidası üçün ideal məhsul kimi, dəmir (Fe) və sink (Zn) elementləri kimi əsas elementlərin yüksək sıxlığı və biozənginliyi ödənilməli, ancaq yeyiləcək hissələrdə kadmium (Cd) və arsen (As) kimi zəhərli (toksik) elementlərin isə olmaması gözlənilməlidir (Huang, Wang, Yamaji, Ma, 2020: 830).




**Şəkil 3. Makro və mikro elementlərin yarpaqdan flüemaya daxil olması**

Günümüzdə iri buynuzlu heyvanların peyinindən istifadə geniş yayılmışdır. Ancaq bu zaman torpaqda fiziki xüsusiyyətləri makro və mikro elementlərin göstəricisini yüksəltsə də bitkidəki Cu (mis) elementinin alınmasına mənfi təsir göstərəcəkdir. Mis (Cu) bitkilərin böyümə proseslərində fermentlərin aktivləşdirilməsini, həmçinin, protein və A vitamini sintezini əhatə edir. Bu vəziyyətdə bitkiyə yarpaqdan Cu elementi tətbiq edilməsi lazımdır. Bu halda da yarpaqdan tətbiq edilən Cu elementi bitkinin torpaqdan Mn elementini almasına mənfi təsir göstərərək öz çatışmazlıq simptomlarını özündə büruzə verir.

Aparılan tədqiqatlar nəticəsində müxtəlif konsentrasiyalı mis (Cu) tətbiqi ilə bitkinin boyunda (hündürlüyü) artım müşahidə olunmuşdur (Sandhu, Dhaliwal, Shukla, Sharma, Singh, 2020: 1383).

Ümumiyyətlə günümüzdə istifadə edilən xəstəliklərə qarşı kimyəvi peraparatların əsas tərkibi $CuSO_4$ tərkiblidir. Mütəmadi olaraq xəstəliyə qarşı mübarizə tədbirləri apardığımız zaman Mn elementinin çatışmazlığı üzə çıxır. Digər antaqonistik təsir isə fosforla sink arasındakı təsirdir. Antaqonistik təsirdə olan P-Zn nisbəti torpaqdakı Zn-in köklər tərəfindən alınmasını təşkil edən mikorizal kök aktivliyinə təzyiq göstərərək Zn elementinin alınmasını sıxışdırıb çıxardır və fosfor elementinin miqdarının yüksəlməsinə səbəb olur. Mikro elementlərin alınmasına təsir edən amillərdən biri də torpaqların həddindən atıq fosforla gübrələnməsidir. Bu zaman torpağa fosforla birlikdə Cd gübrənin qalıntısı kimi torpağa verdiyimiz üçün bitkilərdə Zn elementinin alınmasına təsir göstərəcək. Buna da səbəb hər iki elementin yükünün +2 olmasıdır. Bundan əlavə Zn + bioçar (biokömür) birgə tətbiqi tək Zn və bioçarın tətbiqinə nisbətən taxıl Zn konsentrasiyasının artması ilə taxılın Cd konsentrasiyasını azaldır (Farooq, Ullah, Usman, Siddique, 2020: 1). Mikro elementlərin alınmasına əngəl olan faktorlardan biri də torpaqların ağır metallarla çirklənməsidir. Qida təhlükəsizliyi səbəbilə torpaqdakı sink (Zn) və kadmium (Cd) kimi ağır metalların və onların bitki tərəfindən qəbulunun araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu da hansı miqdarlarda onların bitkilərin məhsulunun yeyilən hissəsini və necə çevrilməsi amilini təyin etməyə imkan verir (Schweizer, Seitz, Van der Heijden, Schulin, Tandy, 2018: 609).

**Görünməz aclığın aradan qaldırılması**

Ölkəmizdə yüksək məhsuldar çeşidlərin seçilməsi illərin sınağından keçmiş sortların yaradılması nəticəsində məhsuldarlığa az da olsa bir təsir göstərə bildiyimizi deyə bilərik. Ancaq bu gün zənginləşdirilmiş qida hələ də bazarımızda öz yerini tapmamışdır. Respublikamızda torpağın azot ehtiyacını tamamlamaq üçün torpaqda pH-dan asılı olaraq amonyak, nitrat və karbamid formada gübrələmə aparılmalıdır. Yüksək pH-lı torpaqlarda azot gübrəsi nitrat formasında, aşağı pH-lı torpaqlarda isə gübrələmə amonyak formada verilməlidir. Bu fərqin səbəbi pH-ın aşağı olduğu torpaqlarda nitrat formalı gübrələrin yuyularaq qrunt qatına getməsidir. Fosforlu gübrələr əkindən qabaq verilməlidir. Torpaqlarımızın gillilik xüsusiyyətindən asılı olaraq kaliumlu gübrələməyə çox ehtiyac duymuruq. Ancaq torpaq analizinə və bitkinin ehtiyac duyduğu miqdara

əsasən gübrələmə aparılması məqsədə uyğundur. Kalsium elementinin çatışmazlığı çox görünmür. Bunun əsas səbəbi torpaq pH-ın 7-dən yuxarı olmasıdır. Ancaq yay aylarında yüksək transpirasiya zamanı kalsium elementinin çatışmazlığı görülə bilər. Kalsium elementinin çatışmazlığı zamanı yarpaqdan gübrələnmə ən əlverişli metoddur. Mikro elementlərin çatışmazlığı sıx görülən problemdir. Məhz bunun üçün də artıq gübrə istehsal edən şirkətlər öz gübrələrini də kompoze edilmiş formada istehsal edirlər. Bu da müəyyən miqdarda mikro elementlərlə zənginləşdirmək deməkdir. Torpaqda qidalı elementlərin zənginləşdirilməsinin ən sadə yolundan biri də şəhər tullantılarının kompostlaşdırılmasıdır. Kompostlaşdırma zamanı həm ekoloji problemlərin qarşısı alınır, həm də bitkilərin ehtiyac duyduğu qidalı maddələri vermiş oluruq. Bitkilərdə qida elementinin artırılmasında istifadə edilən mənbələrdən biri də bakterial gübrələmədir. Bu gübrələr torpaqda və bitkidə qida elementlərinin alınmasında və torpağın mineral tərkibinin yaxşılaşdırılmasında öz təsirini göstərir. Mikro elementlər daha çox azotobakteriyalar və fosfora-bakteriyalar olaraq istifadə edilir.

## Nəticə

Azərbaycan torpaqlarının fiziki və kimyəvi xüsusiyyətləri nəzərə alınaraq görünməz aclığın aradan qaldırılmasında əsas görüləsi iş torpaqların əkindən qabaq düzgün mikro və makro analizi, suvarılma suyunun analizi və bu zaman bu rəqəmlərin əsasında düzgün gübrələmə miqdarının təyinidir. Gübrələmə torpağın xüsusiyyətlərindən və kimyəvi tərkibindən asılı olaraq dəyişir.

Yarpaqdan və kökdən qida elementlərinin verilməsi zamanı bitkinin flüemasındakı daşınma

$$Mikro\ besin\ verimliliği = \frac{Verim - M}{Verim + M} \times 100 \quad (1)$$

onun meyvəsindəki və yarpağındakı dəyərə təsir göstərir. Xüsusi bitki sortlarının mikro elementlərinin məhsuldarlığını aşağıdakı tənliklə hesablamaq olar:

Düstur (1)-dəki '-*M*' mikro element çatışmazlığıdır, '+*M*' isə mikro element gübrələməsidir.

Azərbaycanda sağlam həyat tərzi qurmaq üçün görünməz aclığın aradan qaldırılması zəruridir.

## Ədəbiyyat


1. OCDE (1984). l'Agriculture des Pays l'OCDE: Problèmes et Défis des Années 1980. Paris. p.20.
2. Huang, S., Wang, P., Yamaji, N., Ma, J.F. (2020). Plant Nutrition for Human Nutrition: Hints from Rice Research and Future Perspectives. Molecular Plant. 13, p.825–835, DOI: 10.1016/j.molp.2020.05.00.
3. Manzeke, M.G., Mtambanengwe, F., Nezomba, H., Watt, M.J., Broadley, M.R., Mapfumo, P. (2017). Zinc fertilization increases productivity and grain nutritional quality of cowpea (Vigna unguiculata [L.] Walp.) under integrated soil fertility management. Field Crops Research, 213, p.231–244, DOI: 10.1016/j.fcr.2017.08.010.
4. Graham, R.D., Welch, R.M., Bouis, H.E. (2001). Addressing Micronutrient Malnutrition through enhancing the Nutritional Quality of Staple Foods: Principles, Perspectives and Knowledge gaps. Advances in Agronomy, Volume 70, p.77–142, DOI: 10.1016/s0065-2113(01)70004-1.
5. Nayak, B.K., Adhikary, S., Pattnaik, M., Pal, A.K. (2020). Effect of Sulphur and zinc with combination of FYM on yield and uptake of nutrients in Mustard (Brassica Juncea (L.) under Alfisols of Odisha. J. Pharmacog. Phytochem. 9, p.2310–2313.
6. Sandhu, A., Dhaliwal, S.S., Shukla, A.K., Sharma, V., Singh, R. (2020). Fodder quality improvement and enrichment of oats with Cu through biofortification: a technique to reduce animal malnutrition. Journal of Plant Nutrition, 43:10, p.1378-1389, DOI: 10.1080/01904167.2020.1739291.

7. Farooq, M., Ullah, A., Usman, M., Siddique, K.H.M. (2020). Application of zinc and biochar help to mitigate cadmium stress in bread wheat raised from seeds with high intrinsic zinc. Chemosphere 260, 127652, p.1. DOI: 10.1016/j.chemosphere.2020.127652.
8. Schweizer, S.A., Seitz, B., Van der Heijden, M.G.A., Schulin, R., Tandy, S. (2018). Impact of organic and conventional farming systems on wheat grain uptake and soil bioavailability of zinc and cadmium. Science of the Total Environment. 639, p.608–616. DOI: 10.1016/j.scitotenv.2018.05.187.

Göndərilib: 29.09.2023 Qəbul edilib: 05.11.2023

DOI: https://doi.org/10.36719/2789-6919/27/24-29

**Cəvahir Tunca**
Azərbaycan Memarlıq və İnşaat Univeristeti
Doktorant
cevahir.oa@gmail.com

# NƏQLİYYAT QƏZALARININ ARAŞDIRILMASINDA FOTOQRAMMETRİYANIN ROLU

**Xülasə**

Məqalə nəqliyyat hadisələrində yaranmış qəza anının yenidən qurulmasını və fotoqrammetrik proqram təminatları vasitəsi ilə 2 D və 3D modellərin qurulmasının əhəmiyyətini göstərir. Fotoqrammetrik proqramlar qəza anına intensiv və obyektiv yanaşma yaratmağa imkan verir. Bu isə qəzanı araşdıranların işini daha operativ və daha obyektiv hala gətirir. Məqalədə xüsusilə iWitness proqram təminatı vasitəsi ilə nəqliyyat qəzalarının fotoqrammetrik modellərinin qurulmasına baxılmışdır.

***Açar sözlər:*** *nəqliyyat qəzaları, fotoqrammetrik modellər, nəqliyyat qəza anlarının yenidən qurulması, 2 D və 3D fotoqrammetrik modellər, iWitness proqram təminatı*

**Javahir Tunja**
Azerbaijan University of Architecture and Construction
PhD student
cevahir.oa@gmail.com

## The role of photogrammetry in the investigation of traffic incident

**Abstract**

The article shows the reconstruction of the moment of accident in traffic accidents and the importance of constructing 2D and 3D models by means of photogrammetric software. Photogrammetric programs allow you to create an intensive and objective approach to the moment of an accident. This makes the work of those who investigate the accident more operational and more objective. The article specifically considered the construction of photogrammetric models of transport accidents using the iWitness software.

***Keywords:*** *transport accidents, photogrammetric models, reconstruction of Transport Accident Moments, 2D and 3D photogrammetric models, iWitness software*

## Giriş

Fotoqrammetriyanın bir çox faydalı tətbiqləri arasında avtomobil qəzaları sahəsində, xüsusən də yerində sübutlar və faktlar çıxarıldıqdan sonra avtomobil qəzalarının yenidən faktiki qurulması var. Fotoqrammetriyanın avtomobil qəzası anını yenidən yaratmaq qabiliyyəti bu cür hadisələrin nəticələrini araşdıran polis və məhkəmə ekspertləri üçün çox əhəmiyyətlidir. Çünki avtomobil qəzaları ciddi bədən xəsarətləri, maddi ziyan və ölümlə nəticələnə bilər. Bəzən elə hallar olur ki, qəzaya uğrayan avtomobil və ya nəqliyyat vasitələri məhv olur və onlara müdaxilə etmək mümkün olmur.

Müstəntiqlər qəza anını yenidən necə canlandıra bilərlər. Bu sualın cavabı qismən qəza anının fotoşəkillərini emal edə, onların nöqtələrini və ərazinin 3D modellərini qura və əsas ölçüləri çıxara bilən fotoqrammetriya proqramıdır.

Fotoqrammetrik modellər avtomobilin qəzaya uğradığı zaman nə qədər sürətlə getdiyini və hərəkət istiqamətini müəyyən etmək üçün qəza anını yenidən canlandırmaq üçün istifadə edilə bilər. Hüquq-mühafizə orqanları və ya qarşı tərəflər öz növbəsində bu rekonstruksiyalardan məhkəmədə sübut kimi istifadə edə bilərlər.

Bu məqalədə avtomobil qəzalarının fiziki vəziyyətini polis və digər məhkəmə müstəntiqləri üçün bu qəza anını yenidən qurmağa kömək edən PhotoModeler Technologies-in fotoqrammetriya proqramına nəzər yetirəcəyik. Avtomobil qəzalarının yenidən qurulması onların necə baş verdiyinin fiziki halını anlamaqdan ibarətdir. Toqquşmaları müzakirə edərkən üç kəmiyyəti nəzərə alırıq: qüvvə, impuls və kinetik enerji. Avtomobil bir obyektə dəydikdə, impuls həmişə saxlanılır. Cisimlərə təsir edən qüvvələr onların kütləsindən və necə hərəkət etməsindən asılıdır.

Bildiyimiz kimi, enerji heç vaxt itmir, lakin ümumi kinetik enerji dəyişə bilər (qalan enerji səsə, istiliyə, işığa və s. maddi deformasiyalara gedir). Elastik və qeyri-elastik toqquşmalar anlayışı da var, bizim halda avtomobil qəzası vəziyyəti üçün bu, hər ikisinin birləşməsidir (Mixail, Bethel, Mcgloun, 2001: 479).

Avtomobil bina kimi daşınmaz obyektə, başqa bir avtomobil və ya velosiped kimi daşınan obyektə və ya telefon dirəyi kimi bir şeyə dəyə bilər. Hər bir halda, toqquşmadan sonra qəzaya uğrayan hər iki obyekt fərqli dərəcələrdə ziyana uğrayır.

Biz şəxsi müşahidədən bilirik ki, böyük bir binaya dəyən avtomobil binaya az miqdarda ziyan vura bilər (çat yaradaraq və ya xırda cızıq əmələ gətirərək), lakin avtomobilə çoxlu ziyan dəyəcək. Davamında kinetik enerjini səs-küy və deformasiya kimi digər enerjiyə çevirir. Binanın böyük kütləsi sayəsində onda nəzərəçarpacaq dərəcədə hərəkət yaranmır. Tam tərsi olaraq, velosipedi və ya piyadanı vuran bir avtomobil özünə çox zərər verməyəcək, lakin digər obyektə çoxlu enerji və maddi zərər verəcəkdir (Roper).

Hər iki obyektin (biri avtomobil, digəri isə avtomobil, bina, dirək, velosiped və ya insan) xüsusiyyətlərini (kütlə, sürtünmə və s.) bilirsinizsə, zərbə zamanı sürət kimi parametrləri təyin edə bilərsiniz. Sürəti bilirsinizsə, sürücünün (əgər varsa) qeyri-qanuni olaraq sürət həddini aşdığını (və buna görə də günahkar olduğunu) müəyyən edə bilərsiniz. Bu məlumat sığorta iddiaları və məhkəmə işlərində günahı müəyyən etməyə kömək edir.

Fotoqrammetriya proqramı avtomobil qəzalarında vacibdir, çünki bəzən fotoqrammetrik vasitələrlə hazırlanmış ölçü və modellər məhkəmədə və sonrakı məhkəmə çəkişmələri üçün ən yaxşı və ya yeganə sübutdur.

Bunun üçün PhotoModeler kimi bir proqramın fotoqrammetriya alqoritmləri qəza bucağı, yolda mümkün sürüşmə izləri, hər hansı və ya bütün əmlaka dəyən zərər, həmin əmlakın vurulduğu bucaqlar kimi situasiya elementlərini çəkmək üçün fotoşəkillərə ehtiyac duyur, bu təbii ki, nəqliyyat vasitələrinin özlərində də dəyən zərər miqdarını müəyyən etməyə imkan verir.

Ümumiyyətlə, fotoqrammetriya istifadəçilərə öyrəndikləri obyektlərin fotoşəkillərindən qəza anının və ya avtomobillərin əsas aspektlərinin ölçülməsi imkanı verir. Ölçmələrdən, müstəntiqlər vəziyyətin fizikasını hesablamaq üçün digər proqram və ya cədvəllərdən istifadə edirlər. Fotoqrammetrik xəritə məhkəmədə faydalı sübutdur.

Fotoqrammetriya proqramı üçün, fotoşəkil çəkmək üçün ən yaxşı kamera mövqelərini və bucaqlarını və düzgün "hədəfləri" bilməlisiniz.

Polis tərəfindən qəza yerinin ölçülməsi işi əsas tədbirlərdən biridir. Onlar həm yerüstü fotoşəkillərdən, həm də aerofotoşəkillərindən istifadə edəcəklər. Qeyri-mütəxəssislər tərəfindən çəkilmiş fotoşəkillərdən də istifadə etmək imkanı var - məsələn, ətrafdakılar, sığorta tənzimləyiciləri və ya hətta təhlükəsizlik kameraları tərəfindən çəkilmiş fotoşəkillər. Bu ikinci dərəcəli fotoşəkillər, qəza anı məlumatları ilə birlikdə tez-tez bəzi digər hallar üçün əsas sübut parçaları yarada bilər.

Burada daha bir məqama diqqət yetirilməlidir: avtomobil qəzasından sonra polislə məhkəmə müstəntiqləri arasındakı fərq. İkisinin fərqli işləri var. Polis sübutları sənədləşdirir və onların heç birinin məhv edilmədiyinə əmin olur. Bunu etdikdən sonra polis yolları yenidən ictimaiyyətə açmalıdır. Eyni zamanda məhkəmə-tibbi müstəntiqlər qəzanın baş verdiyi ərazini faktdan sonra və bəzən mükəmməl olmayan məlumatlarla (məsələn, yuxarıda qeyd olunan müşahidəçi və ya təhlükəsizlik kamerası şəkilləri) yenidən qura bilməlidirlər. Qəza zorakılıq cinayəti təşkil edərsə və xüsusən də ölüm halları olarsa, polis qəza yerinin yenidən qurulması ilə məşğul ola bilər. Bununla belə, sonda hadisə yerinin bütün müvafiq hissələrinin kifayət qədər üst-üstə düşən fotoşəkilləri əldə

etmələrini təmin etməklə, tədqiqatçılar fotoqrammetrik proqramlara fotoşəkillərdəki nöqtələri uyğunlaşdırmağa və qəza yerinin miqyaslı 2D və ya 3D modelini hazırlamağa icazə verirlər. Modelin bütün obyektləri öz yerində və həndəsi cəhətdən düzgün bucaqları ilə məhkəmə-tibb ekspertləri sadəcə olaraq kompüter arxasında oturub avtomobil qəzası anını istədikləri bucaqdan görə bilərlər. Bu məlumatlar səbəbi sübut etmək və işlərin məhkəməyə təqdim edilməsi üçün istifadə olunur

Qəzanın yenidən qurulmasının düzgünlüyü qəza yerinin ölçülməsinin bütövlüyü və detallarından asılıdır. Qəza yerinin fotoşəkilləri, o cümlədən nəqliyyat vasitələri qəza yerinin təfərrüatlarına malikdir. Bu fotoşəkillərdən məlumat əldə etmək üçün kompüterdə iki gözlü görmədən istifadə edilə bilər. Bu yazıda fotoşəkillərdən qəza yerinin ölçülməsində istifadə oluna bilən kompüterdə iki gözlü görmə prinsipi təqdim olunur. Qəza anının tədqiqinin manevr qabiliyyətinə görə kamera parametrlərinin kalibrlənməsi üçün xüsusi istinad obyektindən istifadə edilib. Şəklin uyğunlaşdırılmasının səhvləri yenidən qurulmasının dəqiqliyinə çox təsir edir, buna görə də şəkil uyğunluğu qəza yerində eyni kosmik nöqtənin iki fotoşəklindəki iki proyektiv nöqtənin korrelyasiyası əsasında aparılmışdır. Bu üsulla yol-nəqliyyat hadisəsi anının tam miqyaslı modelləri kalibrlənmiş və ölçülmüşdür və bu üsulla yol-nəqliyyat hadisəsi anını ölçməyin mümkün olduğunu sübut etmişdir.

Nəqliyyat vasitələrinin sıradan çıxması, dağılmış yüklər, qəzalar, kritik infrastrukturun nasazlığı və təbii fəlakətlər daxil olmaqla yol-nəqliyyat hadisələri insanların təhlükəsizliyinə təsir edir və xüsusilə normal səyahətin pozulması baxımından cəmiyyətə əhəmiyyətli dərəcədə xərclər bahasına başa gəlir.

Yol-nəqliyyat hadisələrinin mənfi nəticələrini azaltmağın yollarından biri sonradan məhkəmə-tibbi analiz və hüquqi məqsədlər üçün insident anlarının sürətli və hərtərəfli ölçülü qeyd edilməsidir. Məqsəd yol hərəkətinin pozulması vaxtlarını minimuma endirməkdir. Çəkilmiş görüntülər, həmçinin, anın təkzibedilməz və daimi vizual qeydini təmin edir və sonrakı təhlil və araşdırma üçün arxivləşdirilə bilər.

Şəkildə (3a və 3b) göstərilən perspektiv görünüş Qəza Zonasından istifadə edərək 3D modelin göstərilməsindən yaradılmışdır (3). Maraqlıdır ki, qəzanın rekonstruksiyasında adətən məhdud incəlik tələb olunur, burada məqsəd hərtərəfli təsvir edilmiş və ya teksturalı modeldən daha çox, ümumiyyətlə qəza anının ölçülü dəqiq 2D və ya 3D təsvirini əldə etməkdir.

Fotoqrammetriya məlumatların əldə edilməsi sürəti baxımından böyük üstünlük təmin edir və kifayət qədər proses avtomatlaşdırılmasını özündə birləşdirən, istifadəsi asan, dəqiq və etibarlı ölçmə vasitəsidir (MacInnis, Ziqmund, 1989).

Daxil olan bəzi anlayışları təsvir etmək üçün qəza anının fotoqrammetrik sənədləri, bu məqalədə iWitness proqram sisteminə istinad ediləcək (5). Bu yaxın məsafəli fotoqrammetriya sistemi qeyri-mütəxəssis istifadəçi üçün nəzərdə tutulmuşdur və onun əsas tətbiq sahəsi qəzanın yenidən qurulması və məhkəmə-tibbi ölçmədir və hazırda polis tərəfindən geniş istifadə olunur. Sistem, həmçinin, mühəndislik və memarlıq fotoqrammetriyasında bir çox digər 3D ölçmə tapşırıqları üçün alət kimi idealdır.

iWitnessPRO klassik iWitness sisteminin daha yeni və daha təkmil versiyasıdır. O, rəngli retro-əks etdirən kodlu hədəflərdən istifadə etməklə şəbəkə oriyentasiyasında daha yüksək səviyyədə avtomatlaşdırma təmin edir (Cronk, Fraser, Hanley, 2006: 355).

iWitness atributlu nöqtə buludları yaradır, hansı ki, obyektin koordinat məlumatları əsasən DXF və/və ya KML formatlarında saxlanılır. Sistem CAD və modelləşdirmə paketlərində 1-ci şəkildə göstərilmiş qrafik istifadəçi interfeysi üçün nəzərdə tutulmuşdur. Bəzi diqqətəlayiq xüsusiyyətlər JPEG təsvirinin EXIF başlığında olan məlumat vasitəsilə istifadə edilən kamera(lar)ın avtomatik tanınmasıdır; bütün hesablama funksiyalarının tam avtomatik işə salınması (yəni hesablamalar avtomatik olaraq baş verir) və istənilən lazımi görüntü müşahidələrini interaktiv şəkildə nəzərdən keçirmək, tənzimləmək mümkün olan "nəzərdən keçirmə rejimi"(‘review mode’) nöqtəsi 0,05 pikselə qədər dəqiqliklə mərkəzləşdirmə vasitəsilə süni və hətta bəzi təbii hədəflərin yarı avtomatik təsvir nöqtəsinin ölçülməsi, eləcə də həm homolojen, həm də qeyri-homolojen

ELMİ TƏDQİQAT Beynəlxalq onlayn elmi jurnal. İmpakt Faktor: 0.864. 2023 / Cild: 3 Sayı: 11 / 24-29
SCIENTIFIC RESEARCH International online scientific journal. Impact Factor: 0.864. 2023 / Volume: 3 Issue: 11 / 24-29 e-ISSN: 2789-6919

görüntü nöqtələrindən sərbəst formada polixəttlər çəkmək imkanı da mövcuddur (Kullgren, Lee, Tingvall, 1994: 99-106).



**Şəkil 1. iWitness istifadəçi interfeysi**

Yol-nəqliyyat hadisələrinin ölçülməsinin əsas məqsədi avtomobillərin toqquşması anlarını yenidən qurmaqdır. Prosesin son tələblərinin avtomobilin sürəti kimi hesablamalara kömək olub-olmaması, toqquşma hadisəsinin dinamikasını təhlil etmək, sonrakı məhkəmə işində sübut təqdim etmək və ya hər hansı başqa məqsəd üçün ilk vacib addım qəza yerinin ölçülərini dəqiq səciyyələndirməkdir (Fraser, Cronk, 2008)**.**



**Şəkil 2.Qəza anının şəkil şəbəkəsi**



**Şəkil.3a**




(c) CAD Model



**Şəkil.3b**
**Şəkil 3(a,b). Qəza anının yenidən qurulması. Yol qəzalarının fotoqrammetrik yenidən qurulması**

Qəzanın yenidən qurulmasına fotoqrammetrik yanaşmanın ən cəlbedici atributları hadisənin çox qısa müddətdə qeydə alına bilməsi və təsvirin qəzadan sonrakı ölçməsini dəstəkləyəcək daimi arxiv qeydini təmin etməsidir (Şəkil 3a, 3b).

Bu istifadəçi dostu fotoqrammetrik texnologiya - ənənəvi stereo fotoqrammetriyanın bacarıq tələb edən proseslərindən fərqli olaraq indi qəzaların yenidən qurulması üçün istifadə olunur.

## Nəticə

Nəticə etibarilə demək olar ki, həyatın bütün digər sahələrində olduğu kimi nəqliyyat qəzalarında da fotoqrammetriyadan istifadə edərək işin gedişini azlatmaq və dəqiqləşdirmək mümkündür. Fotoqrammetrik yerüstü və havadan çəkilən şəkillərlə qəza anının 2 D və 3 D modellerinin qurulması sayəsində qəza araşdırması daha sürətli və dəqiq hal alır. Polis və müstəntiqlərin qəza anını olduğu kimi canlandırması və toplanan faktların məhkəmə prosesində hüquqi sənəd kimi aktlaşdırılması məhkəmə işinin daha sürətli və obyektiv sonlanmasına gətirib çıxarır.

Yol qəzalarının ölçülməsinin əsas məqsədi nəqliyyat vasitələrinin toqquşma anlarını yenidən qurmaqdır. Prosesin son tələblərinin nəqliyyat vasitəsinin sürəti kimi hesablamalarda kömək olub-olmamasından asılı olmayaraq, toqquşma hadisəsinin dinamikasının təhlili, sonrakı məhkəmə prosesində sübutların göstərilməsi və ya başqa bir məqsəd üçün vacib ilk addım hadisə yerinin ölçüsünü dəqiq müəyyənləşdirməkdir

Hazırda bu sahədə istifadə olunan fotoqrammetrik proqramlar mövcuddur. iWitnessPRO və klassik iWitness, PhotoModeler Technologies proqramları istifadə olunur.

## Ədəbiyyat

1. Mixail, E. M., Bethel, J. J., Mcgloun, J. J.S. (2001). Müasir fotoqrammetriyaya giriş. Nəşr - John Uayli və oğulları, 479 s.
2. Roper, D. H. Magistral hadisələrin idarə edilməsi, milli kooperativ yol araşdırması Proqram layihəsi 20-5, mövzu 18-08.
3. CAD zonası. (2008). http://www.cadzone.com (veb saytına 29 aprel 2008-ci ildə daxil oldu).

4. MacInnis, D. D., Ziqmund, G. P. (1989). Qəzaların yenidən qurulması üçün fotoqrammetriyanın istifadəsi. VI Kanada yol təhlükəsizliyi fənlərarası konfransının materialları, 5-7 iyun.
5. Fotometrix Pty. MMC, 2008. http://www.photometrix.com.au (müraciət tarixi 29 aprel 2008).
6. Cronk, S., Fraser, C. S., Hanley, H. B. (2006). Rəngli rəqəmsal kameraların avtomatik metrik kalibrlənməsi. Fotoqrammetrik qeyd, cild 21, No. 116, s.355-372.
7. Kullgren, A., Lee, A., Tingvall, K. (1994). Nəqliyyat vasitələrinin deformasiyalarını sənədləşdirmək üçün fotoqrammetriya, qəza məlumatlarının genişləndirilmiş toplanması üçün sistemdəki bir vasitədir. Qəzaların təhlili və qarşısının alınması, cild 26, No. 1, s.99-106.
8. Fraser, C. S., Cronk, S., (2008). Yaxın məsafədən fotoqrammetriya üçün ölçmələrə hibrid yanaşma. İSPRS Journal of Photogrammetry & Remote Sensing-də dərc edilmişdir, mart sayı.

Göndərilib: 22.08.2023 Qəbul edilib: 26.10.2023

DOI: https://doi.org/10.36719/2789-6919/27/30-35

**Gülnara Hüseynova**
Azərbaycan Dövlət Aqrar Universiteti
Doktorant
metiska49@gmail.com
**Gülnara Quliyeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
huseynov2005.hh@gmail.com
**Müşfiq Hüseynov**
Azərbaycan Dövlət Aqrar Universiteti
huseynovmusfiq70@gmail.com
UOT – 658.3

# KAYZEN SİSTEMİ MÜƏSSİSƏNİN VƏ ONUN KORPORATİV MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA ƏSAS AMİL KİMİ

**Xülasə**

Bu məqalədə Kayzen sisteminin davamlı təkmilləşdirmə üsulları, prinsipləri və mərhələləri müzakirə olunur. Müəssisələrin qənaətli istehsalın metodologiyası və alətləri əsasında təkmilləşdirilməsi üçün təklif vermə sistemlərinin yaradılması təcrübəsi verilmişdir. Həmçinin məqalədə müəssisənin korporativ mədəniyyətinin formalaşması prosesində Kayzen konsepsiyasının tətbiqinin rolunun təhlili ilə bağlı aktual məsələlərə toxunulur.

Baxılan məsələlərin tədqiqi Kayzen konsepsiyasının həyata keçirilməsi prosesində ən əhəmiyyətli və geniş yayılmış problemin işçilərin motivasiyası olduğunu müəyyən etməyə imkan verdi.

***Açar sözlər:*** *qənaətli istehsal, liderlik, korporativ mədəniyyət, korporativ mədəniyyət funksiyaları, Kayzen*

**Gulnara Huseynova**
Azerbaijan State Agrarian University
PhD student
metiska49@gmail.com
**Gulnara Guliyeva**
Azerbaijan State Agrarian University
huseynov2005.hh@gmail.com
**Mushvig Huseynov**
Azerbaijan State Agrarian University
huseynovmusfiq70@gmail.com
UOT – 658.3

# Kaizen system as a key factor in the development of the enterprise and its corporate culture

**Abstract**

This article discusses the methods, principles and stages of continuous improvement. The experience of creating systems for submitting proposals for improvements in enterprises based on the methodology and tools of lean production is given. It also touches upon topical issues related to the analysis of the role of introducing the Kaizen concept in the process of forming the corporate culture of an enterprise. Special attention in the research process is paid to the basic principles of Kaizen, which should be followed in the course of the development of corporate culture.

The study of the issues under consideration made it possible to establish that one of the most common, and, consequently, significant problems in the process of implementing the Kaizen concept is staff motivation.

***Keywords:*** *lean manufacturing, leadership, corporate culture, corporate culture functions, Kaizen*

## Giriş

Davamlı təkmilləşdirmə — keyfiyyətli idarəetmə sisteminin və qənaətcil istehsalın prinsiplərindən biridir. Davamlı təkmilləşdirmə liderlik və işçilərin cəlb edilməsi prinsipləri vasitəsilə həyata keçirilir. Bu gün təşkilatı idarə etmək, layihələri idarə etmək, keyfiyyət sistemlərini inkişaf etdirmək və istifadə etmək, təkmilləşdirmə üçün təkliflər vermək — bütün bu fəaliyyət sahələri lidersiz, yəni şəxsi səlahiyyət əsasında komanda formalaşdırıb onu nəzərdə tutulan məqsədlərə çatdırmağı bacaran şəxslər olmadan səmərəli ola bilməz.

Hazırda liderlik bir tərəfdən istehsal münasibətlərinin yeni növü, digər tərəfdən isə mədəni münasibət və dəyər kimi qəbul edilir. Liderlik funksiyaları təşkilatın bütün səviyyələrində, istənilən məsələlərin həllində tələb olunur. Əks halda yaradıcılıqda yüksəlişə və entuziazm mühitinin yaranmasına ümid etmək çətindir. Məhz bu, müasir bazarın sərt rəqabət şəraitində təşkilatın uğurlu fəaliyyətinə imkan verir.

Rəhbərin vəzifəsi təşkilatın hər bir üzvünü ümumi işin uğurlu nəticəsinin sırf onun işindən asılı olduğuna inandırmaqdır. Təşkilatı səmərəli şəkildə idarə etmək və qoyulan məqsədlərə çatmaq üçün bütün işçilərin səriştəli və səlahiyyətləndirilmiş olması vacibdir. Bu, onlara təşkilatın keyfiyyət sahəsində məqsədlərini daha yaxşı başa düşməyə imkan verir, işçilərin məmnuniyyətini, şəxsi inkişafını, təşəbbüskarlığını və yaradıcılığını, inamı və təkmilləşdirmə fəaliyyətlərində iştirakını, həmçinin ortaq dəyərlərə və korporativ mədəniyyətə marağı artırır (Collin, Toshihiko, 2017: 298).

Müasir təşkilat, bir qayda olaraq, qarşılıqlı fəaliyyət göstərən komandalar sistemidir. Komanda həmişə müxtəlif ixtisaslara malik peşəkarlardan ibarətdir və konkret problemi həll etmək üçün birgə fəaliyyət göstərir. Bu zaman layihə kimi təşkilati formadan istifadə olunur. Komandada əlaqələrin düzgün qurulmasının ilk addımı səlahiyyətlərin müvafiq bölgüsüdür. Səlahiyyətlərin bölgüsü etimada əsaslanır. Bu, komandada məlumatın ötürülməsinin açıqlığı və şəffaflığı üçün ilkin şərtdir. İnformasiya axınlarının şəffaflığı isə öz növbəsində heyətin cəlb olunmasına kömək edir.

Təşkilatın rəhbərliyinin aktual vəzifələrindən biri muzdlu işçilərin əməkdaşlara çevrilməsidir. Əməkdaş, muzdlu işçidən fərqli olaraq, təşkilatın mədəniyyətini və dəyərlərini bölüşür. Buna görə də hər bir işçinin fərdi məqsədlərinin təşkilatın məqsədləri ilə üst-üstə düşməsinə çalışmaq lazımdır. Təşkilatda nə qədər çox insan onun xeyrinə fəaliyyət göstərsə, təşkilat qarşısında bir o qədər parlaq perspektivlər açılır.

Uğurlu təşkilatlar təkmilləşdirməyə daim diqqət yetirirlər. Bu, mövcud fəaliyyət səviyyəsini saxlamağa və dəstəkləməyə, dəyişikliklərə vaxtında reaksiya verməyə və perspektivləri müəyyən etməyə imkan verir. Dəyişikliklərin və uyğunlaşmanın daimi təkmilləşdirilməsinə kömək edən amillər aşağıdakılardır:

- ❖ proseslərin səmərəliliyini, təşkilatın imkanlarını və müştəri məmnuniyyətini artırmaq;
- ❖ planlaşdırılan tədbirlərlə uyğunsuzluqların yaranmasının əsas səbəblərini müəyyən etmək və araşdırmaq;
- ❖ daxili və xarici riskləri, imkanları proqnozlaşdırmaq, onlara vaxtında cavab vermək;
- ❖ sürətli təkmilləşdirmələrə nail olmaq;
- ❖ biliyi daha səmərəli tətbiq etmək;
- ❖ innovasiyalardan istifadə etmək (Imai, 2007: 345).

Təşkilat rəhbərliyi strateji məqsədi aydın şəkildə görürsə, təkmilləşdirmə siyasəti həqiqətən təsirli olur. Hər amili bir anda yaxşılaşdırmaq istəyi adətən resursların dağılmasına səbəb olur. Buna görə qarşıdakı fəaliyyəti təmin edə biləcək addımları müəyyən etmək lazımdır. Təkmilləşdirmənin əsas qaydası eyni anda bir neçə işi yerinə yetirmək deyil, başladılan işi həmişə sona çatdırmaqdır.

Yaponiyada davamlı təkmilləşdirmə siyasəti "Kayzen" fəlsəfəsi ilə müəyyən edilir, bu fəlsəfəyə əsasən şirkətin istənilən vəzifədə çalışan hər bir əməkdaşı bütün prosesləri davamlı olaraq təkmilləşdirmək üçün çalışır.

Bu, şirkətin bütün işçilərinin (ali rəhbərlik, orta təbəqənin rəhbərləri, mütəxəssislər və işçilər) mövcud dəyəri artırmaq və israfı azaltmaq məqsədi ilə təşkilatın bütün aspektlərinin davamlı təkmilləşdirilməsinin əziyyətli, tələsik olmayan prosesidir. Əməkdaşlara təkmilləşdirmə imkanlarını araşdırmaq və dəyişikliklər etmək məqsədilə qanun, alətlər və metodologiya verilir. (Yapon avtomobil firmaları Amerika bazarına bu cür daxil oldular). (Layker, 2008: 402).

Davamlı təkmilləşdirmə siyasəti korporativ mədəniyyətin yeni formasının yaranmasına gətirib çıxarır. Onun formalaşması aşağıdakı sahələrdə həyata keçirilir:

1. İstehsal sahələrinin və ofis bölmələrinin işinin təkmilləşdirilməsi.
2. İstehsal proseslərinin, iş yerlərinin, avadanlıqların, iş əməliyyatlarının davamlı təkmilləşdirilməsi.
3. Keyfiyyətin daim yaxşılaşdırılması.
4. Yeni məhsul növlərinin istehsala buraxılması.

Kayzen konsepsiyası, istehsal, idarəetmə, hazırlanma, köməkçi biznes əməliyyatlarının saxlanması ilə bağlı bütün proseslərin davamlı olaraq təkmilləşdiriləcəyi bir istehsal sisteminin təşkilini əhatə edən bir konsepsiyadır. Həm də qeyd etmək lazımdır ki, bu konsepsiya Toyotada geniş olmayan istehsal kimi formalaşmışdır, buna görə də bəzi yanaşmalarda, məsələn, 5S prinsipinə əsasən iş sahəsinin təşkili istehsal sisteminin inkişafının hər iki metodunda da mövcuddur (Miller, Wroblewski, Villafuerte, 2014: 198).

5S nəticəsində tullantının yaranması və istifadə olunan yer daha da azalır, nizam və keyfiyyət yüksəlir, işçilər daha çox çalışırlar. Şəkildə 5S sistemi göstərilib.




**Şəkil 1. Kayzen 5S sistemi**

Kayzen kiçik davamlı müsbət dəyişikliklərin əhəmiyyətli irəliləyişlərə səbəb ola biləcəyi fikrinə əsaslanan davamlı təkmilləşdirmə yaratmaq üçün istifadə edilən bir yanaşmadır. O, ümumiyyətlə, əməkdaşlığa və öhdəliyə əsaslanır, transformasiyaya nail olmaq üçün genişmiqyaslı və ya yuxarıdan aşağıya dəyişiklikdən istifadə edən yanaşmalardan fərqlənir. Kayzen yanaşması

qüsurları, tullantıları azaltmaq və ya tam aradan qaldırmaq, məhsuldarlığı artırmaq, işçilərin məqsədlərini, məsuliyyətini və innovasiyaları təşviq etmək üçün istehsal sektorunda işlənib hazırlanmışdır.

Bir çox şərhləri ehtiva edən, geniş anlayış olan Kayzen bir çox sənaye, iqtisadiyyat və ictimai sahə tərəfindən qəbul edilmişdir. Kayzen konsepsiyası şirkətin korporativ mədəniyyətinin formalaşması və inkişafı prosesində əhəmiyyətli perspektivlərə malikdir və böyük imkanlar açır.

Bu mövzuda müvafiq yanaşmanın əsasını təşkil edən prinsiplərə xüsusi önəm verilməsi məqsədəuyğun hesab edilir və bu prinsiplərə riayət etmək korporativ mədəniyyətin inkişaf etdirilməsi prosesində rəhbərlik və şirkətin işçiləri ilə səmərəli əməkdaşlığın təmin edilməsi və prosesi imkan yaradacaqdır (Murzaev, 2019: 20).

Beləliklə, əsas prinsiplər bunlardır:

1. Görülən tədbirlərə inam, mümkün fərziyyələrin minimuma endirilməsi.

2. Problemlərin həllində şirkətin bütün işçilərinin maksimum fəallığı.

3 Rəhbərliyin yalnız status-kvoya riayət etməməsi, həmçinin şirkətdə baş verən bütün proseslərin fəal iştirakçısı olması.

4. Perfeksionizmin tarazlaşdırılması və adaptiv dəyişikliyə diqqətin yetirilməsi.

5. Səhvlərin mənbələrinin axtarışı üsullarının müəyyən edilməsi.

6. Hər bir şəxsin töhfə verə biləcəyini hiss etdirən bir mühitin yaradılması.

7. Məlum olan problemlərə yox, bunun əvəzinə problemlərin səbəblərinə diqqətin yetirilməsi.

8. Müxtəlif mənbələrdən məlumatların toplanması və təhlili, həmçinin müxtəlif insanların fikirlərinin öyrənilməsi.

9. Qənaətli və kiçik təkmilləşdirmələr tapmaq üçün yaradıcılıq yanaşmalarından istifadə edilməsi.

10. Təkmilləşdirmələrin heç vaxt dayanmaması.

Kayzen konsepsiyası hər şeyin yaxşılaşdırıla biləcəyi və heç bir şeyin status-kvo olmadığı inancına əsaslanır. Bu, həm də insanlara hörmət prinsipinə əsaslanır. Kayzen problemlərin və imkanların müəyyən edilməsini, həll yollarının seçilməsini və onların tətbiqini, sonra isə qeyri-adekvat həll edilmiş problemləri və ya çətinlikləri müəyyən etmək üçün dövrün təkrarlanmasını əhatə edir (Orlova, 2019: 11-16).

Şirkətin korporativ mədəniyyətinin formalaşması prosesində yeddi mərhələdən ibarət olan Kayzen dövründən istifadə edilməlidir ki, bu da onun davamlı təkmilləşdirilməsi və gələcək inkişafı üçün istifadə edilə bilər.

Mərhələ 1. İşçilərin cəlb edilməsi. Şübhəsiz ki, səmərəli korporativ mədəniyyətin formalaşdırılması yalnız işçilərin bu prosesə cəlb edilməsi ilə həyata keçirilə bilər ki, bu da işdə yaranan problem və çətinlikləri müəyyən etməyə imkan verəcəkdir. Təcrübədə bu, daha geniş işçilər qrupundan məlumat toplamaq və ötürmək vəzifəsini daşıyan xüsusi qrupların təşkilatı kimi müşahidə edilə bilər.

Mərhələ 2. Problemin axtarışı. Bütün işçilərin geniş rəyindən istifadə edərək problemlərin və potensial imkanların siyahısı tərtib edilə bilər.

Mərhələ 3. Qərarın əsaslandırılması. Müəssisənin rəhbərliyi kreativ qərarlar təklif edilməsinə işçiləri təşviq etməlidir və hər cür ideyaları stimullaşdırmalıdır. Yaradılan siyahıdan rəhbərlik ən düzgün qərar və ya qarşıya qoyulan məqsədlərə nail olmaq yollarını seçə biləcəkdir (Sing, 2018: 318).

Mərhələ 4. Həll yolunun yoxlanılması. Düzgün qərar, onun seçilməsi və əsaslandırılması prosesində iştirak edənlərin hamısının cəlb olunması ilə həyata keçirilməlidir. Bunun üçün pilot proqramlar yaradıla bilər və ya qərarı yoxlamaq üçün başqa addımlar atıla bilər.

Mərhələ 5. Nəticələrin təhlili. Müxtəlif intervallarda konkret planlarla əldə edilən nəticələrin gedişatını və həcmini yoxlamaq lazımdır. Bu, dəyişikliyin nə dərəcədə uğurlu olduğunu müəyyən edəcəkdir.

Mərhələ 6. Standartlaşdırma. Layihənin nəticələri müsbət olarsa, o zaman nəticələrin şirkətin digər bölmələrində də həyata keçirilməsi məqsədəuyğun olar.

Mərhələ 7. Təkrarlanma. Yuxarıda göstərilən addımlar, ehtiyac yarandıqda yeni qərarları yoxlayaraq və ya yeni məsələləri həll etməklə davamlı olaraq təkrar edilməlidir.

Beləliklə, müəssisədə Kayzen konsepsiyasının fəaliyyət göstərməsi üçün zəruri elementlərin siyahısını və korporativ mədəniyyəti xarakterizə edən funksiyaların məcmusunu nəzərə alaraq, onun korporativ mədəniyyətin effektivliyinə nə qədər təsir etdiyini müəyyən edə bilərik (Cədvəl 1-ə baxın).

Kayzenin hər bir elementi ən azı bir funksiyaya bu və ya digər şəkildə təsir göstərir. Cədvəl 1 təcrübədə təsdiq edilmiş ən gözəçarpan əlaqələri vurğulayır. Cədvəl 1-i təhlil edərək, korporativ mədəniyyətin formalaşmasına Kayzen konsepsiyasını təqdim etməklə istehsal sisteminin inkişafının rolu ilə bağlı aşağıdakı nəticələrə gələ bilərik:

1.Korporativ mədəniyyətin formalaşması çərçivəsində Kayzen konsepsiyasının əsas istiqamətləri motivasiya və adaptiv funksiyalardır.

2. Kayzen konsepsiyası adaptiv, sistem yaradan və cəlb olunma funksiyalarına da təsir edir.

3. Kayzen konsepsiyası ən az identifikasiya və imic funksiyalarına təsir göstərir.

**Cədvəl 1. Kayzen konsepsiyasının prinsiplərinin korporativ mədəniyyətin funksiyalarına təsirinin müqayisəsi**

| Korporativ mədəniyyətin funksiyaları | Kayzen konsepsiyasının prinsipləri | | | | |
|---|---|---|---|---|---|
| | Komanda işi | Şəxsi nizam-intizam | Mənəvi vəziyyət | Keyfiyyət dərnəyi | Təkmilləşdiril-məsinə dair təkliflər |
| Motivasiya | | | | | |
| İdarəetmə | | | | | |
| Adaptivlik | | | | | |
| Sistem yaratma | | | | | |
| Cəlb olunma | | | | | |
| İdentifikasiya | | | | | |
| İmic | | | | | |

Ən populyar və əhəmiyyətli problemlərdən biri işçilərin motivasiyasıdır. Sənaye müəssisələrində aparılan sorğuya əsasən, 46 müəssisədən 38-i Kayzen konsepsiyasının planlaşdırma və ya həyata keçirmə prosesindədir.

Belə ki, orta hesabla bu konsepsiyanın həyata keçirilməsindən qənaətbəxş nəticələr əldə etmək üçün müddət təxminən 5 il olduğu halda, rəhbərlər onu 2,5 il ərzində həyata keçirməyi planlaşdırırlar (Tomic, et al, 2017: 2430-2442). Beləliklə, müəssisələr, hətta Kayzen konsepsiyasını nəzərə alaraq, istehsal sisteminin inkişafında kadrların marağı və motivasiyası problemi ilə üzləşirlər.

## Nəticə

Beləliklə, Kayzen konsepsiyasından istifadə edən şirkətdə əsas amil idarəetmə prosesinə diqqət yetirməkdir. Bu konsepsiyadan istifadə edən şirkətlər, digərləri kimi, eyni dərəcədə maliyyə nəticələri əldə etməyə çalışırlar, lakin onlar qeyd olunan mülahizəni rəhbər tuturlar: şirkətdə proseslər yaxşı gedirsə, iş fəaliyyəti işçilərin işə cəlb olunmasını stimullaşdıracaq şəkildə qurulubsa, arzuolunan nəticələr qaçılmaz olacaq.

## Ədəbiyyat

1. Collin, M., C., Toshihiko, M. (2017). True Kaizen management's role in improving work climate and culture. New York: Productivity Press, 298 p.
2. Imai, M. (2007). Gemba Kaizen: Put k snizheniyu zatrat i povysheniyu kachestva: per. s angl. 3-e izd. – M.: Alpina Biznes Buks, 345 s. (Seriya "Modeli menedzhmenta vedushchikh korporatsiy").
3. Layker, Dzh. (2008). Dao Toyota: 14 printsipov menedzhmenta vedushchey kompanii mira: per. s angl. 4-e izd. – M.: Alpina Biznes Buks, 402 s.
4. Miller, J., Wroblewski, M., Villafuerte, J. (2014). Creating a Kaizen culture: align the organization, achieve breakthrough results, and sustain the gains / New York: McGraw-Hill Education. 198 p.
5. Murzaev, R.T. (2019). Sistema "Kaidzen" kak forma motivatsii i stimulirovaniya kadrovogo personala. Vestnik magistratury. 2019. №12-1. s.20-21.
6. Orlova, M.G. (2019). K voprosu formirovaniya reputatsionnoy komplaens-kultury. Vestnik Sibirskogo gosudarstvennogo universiteta putey soobshcheniya: Gumanitarnye issledovaniya. №2(6). s.11-16.
7. Sing, O. Yu. (2018). Aziatskiy stil upravleniya: Kak rukovodyat biznesom v Kitae, Yaponii i Yuzhnoy Koree; per. s angl., Moskva. Alpina Pablisher, 318 s.
8. Tomic, B. et al. (2017). Organizational culture, quality improvement tools and methodologies, and business performance of a supply chain. Proceedings of the Institution of Mechanical Engineers. Part B. Journal of engineering manufacture. Volume 231: Number 13; pp.2430-2442.

Göndərilib: 20.09.2023 Qəbul edilib: 15.11.2023

DOI: https://doi.org/10.36719/2789-6919/27/36-39

**Fidan Babayeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
babayevafidan2013@gmail.com
**Zenfira Bayramova**
Azərbaycan Dövlət Aqrar Universiteti
zemabayramova567@gmail.com

# AZƏRBAYCANDA İNNOVATİV AQRAR SAHƏNİN İNKİŞAFI VƏ ONUN PRİORİTET İSTİQAMƏTLƏRİ

**Xülasə**

Bəşəriyyətin qarşısında duran ən qlobal problemlərdən biri də XXI əsrdə dayanıqlı sosial-iqtisadi inkişafa nail olmaqdır. Bu gün bazar iqtisadiyyatı şəraitində respublikamızda sosial-iqtisadi inkişafın sürətləndirilməsi, yeni iqtisadi münasibətlərə uyğunlaşdırılması, həmçinin regionlarda aqrar sahənin daha da təkmilləşdirilməsi mühüm məsələlərdən biri kimi qarşıya qoyulmuşdur. Ölkəmizdə aqrar sahənin daha da inkişaf etdirilməsi üçün yeni innovativ inkişafa əsaslanaraq, qabaqcıl texnologiyaların tətbiqi çox vacib sayılır. Nəzərə almaq vacibdir ki, bu gün bütün dünyada iqtisadiyyatın daha da təkmilləşdirilməsi, innovativ inkişafın sürətlənməsi üçün yeniliklərdən istifadə əsasında yeni bir paradiqma formalaşmaqdadır. Məhz buna görə də Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya şəraitində bu prosesləri əsas tutaraq milli iqtisadiyyatın bütün sahələrində, o cümlədən, kənd təsərrüfatında da innovativ proseslərin intensivləşməsini təmin etməlidir.

***Açar sözlər:*** *innovativ fəaliyyət, investisiya qoyuluşu, modernləşdirmə, elmi texniki tərəqqi, dayanıqlı inkişaf*

**Fidan Babayeva**
Azerbaijan State Agrarian University
babayevafidan2013@gmail.com
**Zenfira Bayramova**
Azerbaijan State Agrarian University
zemabayramova567@gmail.com

# Development of the innovative agricultural sector in Azerbaijan and its priority directions

**Abstract**

One of the most global problems facing humanity is achieving sustainable socio-economic development in the 21st century. Today, in the conditions of the market economy, acceleration of socio-economic development in our republic, adaptation to new economic relations, as well as further improvement of the agricultural sector in the regions are considered as one of the important issues. In order to further develop the agricultural sector in our country, it is considered very important to apply advanced technologies based on new innovative development. It is important to take into account that today a new paradigm is being formed around the world based on the use of innovations for the further improvement of the economy and the acceleration of innovative development. That is why Azerbaijan should ensure the intensification of innovative processes in all areas of the national economy, including agriculture, based on these processes under the conditions of integration into the world economy.

***Keywords:*** *innovative activity, investment, modernization, scientific and technical progress, sustainable development*

## Giriş

Bazar iqtisadiyyatının bugünkü sürətli inkişafı məhz strateji əhəmiyyətə malik olan aqrar sahənin müasir tendensiyalara cavab verən, keyfiyyətcə yeni texniki və texnoloji əsasda qurulmasını tələb edir. Müasir şəraitdə aqrar sahənin inkişafında başlıca amil innovativ fəaliyyətdir. Aqrar sahədə aqrosənaye müəssisələrinin dayanıqlı inkişafının təmin edilməsi, yenilikçi müəssisələrin yaradılması, kənd təsərrüfatı məhsulları istehsalçıları arasında innovativ inkişafın sürətləndirrilməsi üçün aşağıdakı bir neçə amilə nəzər salmaq məqsədə uyğundur: - insan kapitalına investisiya – aqrar təhsilin, fundamental və tətbiqi tədqiqat təşkilatlarının prioritet inkişafı, innovasiyalara dair məlumat bankının yaradılması, həmçinin kənd təsərrüfatı istehsalçılarına xidmət göstərən məlumat və məsləhət sisteminin yaradılması; - bioloji reurslara investisiya – innovativ metodların tətbiqi ilə torpağın münbitliyinin və kənd təsərrüfatı istehsalının məhsuldarlığının artırılması; - yeni texnologiyaya investisiya – enerji və ehtiyata qənaət edən avadanlıq və yüksək texnologiyalardan istifadə etməklə kənd təsərrüfatının texniki və texnoloji potensialının yaxşılaşdırılmasını təmin edən əmək məhsuldarlığını və kənd təsərrüfatı fəaliyyətinin səmərəliliyini kəskin artıra bilən texnologiyaların inkişafına qoyulan investisiyadır (Aliyev, 2007: 400). Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı istehsalında gözə görünən mənfi amilləri aradan qaldırmaq üçün yeni texnologiyaya əsaslanan sənayenin texnoloji modernləşdirilməsi yolunun seçilməsi labüddür. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sahələri üzrə Strateji Yol Xəritəsi”nin prioritet istiqamətlərindən biri olan “Əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının inkişafının stimullaşdırılması” bəndində qeyd edilmişdir ki, Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətli, inklüziv və dayanıqlı inkişafı istiqamətində qarşıya qoyulan əsas tələb insan kapitalının inkişafına və əmək məhsuldarlığının inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılmasına nail olmaqdır. İnnovasiya məhsuldarlığı aqrar sahədə daha sürətli inkişafı təmin etməklə yanaşı, məhsuldarlığı da artırır (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Strateji Yol Xəritəsi”). Artıq Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya etməsi, son illərdə kənd təsərrüfatında bir sıra innovativ metod və üsullardan istifadəsi ilə göz qabağındadır. Belə ki, kənd təsərrüfatında bu gün dronlardan istifadə, ağıllı kənd, ağıllı bağ, yeni əkin metodları, müasir şəraitdə bioloji dərmanlardan zərərvericilərə qarşı istifadə, biotexnologiya laboratoriyalarında ekoloji təmiz toxum və ting yetişdirilməsi və s. bu kimi proseslər təqdirəlayiq hesab edilir.

Nəzərə almaq lazımdır ki, aqrar sahənin inkişafı ölkə əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatı, yeni iş yerlərinin açılması və kənd təsərrüfatı məhsullarının ixracından daxil olacaq valyuta deməkdir. Aqrar islahatların müasir mərhələsində strateji yanaşmanın əsasını da məhz bu təşkil edir (Əhmədov, 2010: 4).

Prezident İlham Əliyevin 2018-ci il 19 dekabr tarixli “Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsinə dair” fərmanı həyata keçirilən aqrar islahatların mühüm tərkib hissəsidir. Fərmanda əsasən aqrar sahənin inkişafı məqsədilə müvafiq mərkəzlərin yaradılması, bu mərkəzlərdə innovativ inkişafa nail olunması və aqrolizinq xidmətlərinə dövlət dəstəyinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Həmçinin Azərbaycan regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Artıq üçüncü dövlət proqramı olan “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın reallaşdırılması başa çatmış, (birinci Dövlət Proqramı 2004-2008, ikinci 2009-2014-cü illər) 2019-2023-cü illər dördüncü Dövlət proqramı isə müvəffəqiyyətlə icra olunmaqdadır. Dövlət Proqramının icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə makroiqtisadi sabitliyin təmin olunmasında, regionların sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və yeni iş yerlərinin yaradılmasında irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində və nəhayət əhalinin rifah halının daha da yaxşılaşdırılması və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol

oynayacaqdır ("Azərbaycan Respublikası regionlarının 2004-2008, 2009-2018, 2014-2018, 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı". Azərbaycan Respublikası Prezidentinin Fərmanı). Dövlətimizin başçısının qarşıya qoyduğu ən mühüm vəzifələr sırasında sosial-iqtisadi inkişafın innovativ və kreativ vasitələrlə sürətləndirilməsi mühüm yer tutur. İnnovasiya proseslərinin intensivliyinin artması hazırda qlobal iqtisadi sistemdə baş verən dəyişikliklərin mühüm istiqamətlərindəndir. Müasir inkişaf dövründə iqtisadiyyatın çevrilməsinin innovasiyaya istiqamətlənmiş proseslərinin reallaşdırılması ölkənin xalq təsərrüfatının rəqabət qabiliyyətinin artımı perspektivində təyin olunan kənd təsərrüfatı sektorunun regional innovativ sistemlərinin formalaşmasını tələb edir. Kənd təsərrüfatı sektorunun innovativ sisteminin optimal fəaliyyət göstərməsi milli innovasiya sisteminin mühüm halqası kimi onun innovasiya potensialının vəziyyətinin və inkişaf səviyyəsinin mövcudluğundan asılıdır, bu da öz növbəsində yalnız ayrıca götürülmüş regionun deyil, bütünlükdə ölkənin iqtisadi artımını təyin edir. Aqrar-sənaye kompleksində dövlət innovasiya siyasətinin ən vacib məqsədi bütün səviyyələrdə effektiv innovasiya üçün şərait yaratmaqdır. Aqrar-sənaye kompleksində dövlət innovasiya siyasətinin həyata keçirilməsi üzrə tədbirlər məcmusu kənd təsərrüfatı istehsalının xüsusiyyətləri nəzərə alınmaqla innovativ fəaliyyətin yeni mütərəqqi formalarının inkişafını təmin edən transformasiyalarla müəyyən edilir (İbrahimov, 2002: 190). Əvvəla, kənd təsərrüfatı sektorunda yeniliklərin axışmasına kömək edəcək qanunvericilik və tənzimləmə mexanizmlərinin formalaşmasına xüsusi diqqət yetirilməlidir. Dövlətin kənd təsərrüfatı sektorundakı innovativ proseslərin inkişafına münasibətini, dövlət dəstəyi istiqamətlərini və tədbirlərini müəyyənləşdirən qanunları və digər normativ sənədləri hazırlamaq, habelə innovativ fəaliyyətə investisiya qoymaq üçün əlverişli şərait yaratmaq lazımdır. Dövlətin iqtisadi təhlükəsizliyini təmin etmək təhdidlərə çevrilməsinin qarşısını almaq üçün çağırışlara cavabdır. Hal-hazırda bəşəriyyət iqlim dəyişikliyi, əhalinin qocalması, qlobal qida təhlükəsizliyi kimi tədqiqatlar və texnoloji inkişafın müəyyən sahələrinin ("təmiz" enerji, genom dərmanı, kənd təsərrüfatında yeni texnologiyalar) sürətli inkişafının zəruriliyini diktə edən problemlərlə üzləşir və s.). Bu çətinliklərə cavab vermək üçün Azərbaycanın qlobal innovasiya sisteminə daha dərindən inteqrasiyası lazımdır.

Müasir şəraitdə yerli kənd təsərrüfatı istehsalçılarının rəqabətqabiliyyətliliyini və kənd təsərrüfatı sektorunun inkişafına dair strateji göstərişlərə nail olmağı təmin edə biləcək yeganə mümkün ssenari yenidir (Şəkərəliyev, 2009: 334). Dövlət aqrar siyasəti onun həyata keçirilməsinə yönəldilməlidir. İqtisadiyyatın kənd təsərrüfatı sektorunun innovasiya inkişafı strategiyasının icrası çərçivəsində sənayenin texniki və texnoloji modernləşdirilməsi həyata keçirilir, bunlar olmadan ölkənin ərzaq təhlükəsizliyini təmin etmək mümkün deyil. Texniki və texnoloji modernləşdirmə tədbirlərinin icrası dövlət dəstəyi fondlarının cəlb edilməsi ilə həyata keçirilir. İnvestisiya kreditləri üzrə faiz ödəməsi dəyərinin bir hissəsinin geri qaytarılması üçün subsidiyalar şəklində həyata keçirilməlidir. Bununla birlikdə quraqlığın təsiri altında kənd təsərrüfatı istehsalçılarının gəlirliliyinin azalması səbəbindən maşın və traktor parkının yenilənmə sürəti xeyli dərəcədə artırılmalıdır. Aqrar sahənin spesifikliyi onunla şərtlənir ki, burada bəzən səmərəsi özünü uzun illər göstərən təcrübi tədqiqatları da maliyyələşdirmək zərurəti yaranır. Yəni elmi tədqiqatlara ayrılan vəsaitlər bəzən uzun müddət sonrakı iqtisadi inkişaf üçün zəruri olan elmi-innovativ yenilikləri stimullaşdırır. Son on il ərzində Azərbaycan dünyada ən sürətli templərlə inkişaf edən dövlət kimi tanınır. Bunun başlıca səbəbi elmi əsaslara söykənən iqtisadi islahatların siyasi islahatlarla tamamlanması və uzlaşdırılmasıdır. Azərbaycanın bu təcrübəsi dünyada maraqla qarşılanır və öyrənilir.

Dövlətimizin başçısının qarşıya qoyduğu ən mühüm vəzifələr sırasında sosial-iqtisadi inkişafın innovativ və kreativ vasitələrlə sürətləndirilməsi mühüm yer tutur. İnnovasiya proseslərinin intensivliyinin artması hazırda qlobal iqtisadi sistemdə baş verən dəyişikliklərin mühüm istiqamətlərindəndir. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli fərmanının 6.3-cü bəndinin icrasına uyğun olaraq aqrar sahədə "Elektron kənd təsərrüfatı" İnformasiya Sisteminin təşkili, fəaliyyəti və bu sistemin digər dövlət informasiya

sistemləri və ehtiyatları ilə inteqrasiyası məsələlərinin tənzimlənməsi məqsədilə Nazirlər Kabinetinin 30 dekabr 2014-cü il tarixli 408 nömrəli qərarı ilə "Elektron kənd təsərrüfatı" İnformasiya Sistemindən istifadə Qaydaları" təsdiq edilmişdir (Quliyev, 2015: 30).

## Nəticə

Bu gün aqrar sahədə həyata keçirilən modernləşmə tədbirləri - Azərbaycanda milli iqtisadiyyatın prioritet sahələrindən biri olan kənd təsərrüfatında həyata keçirilən keyfiyyət yönümlü islahatların dönməzliyinin təmin olunmasında, müasir kəndin sosial-iqtisadi inkişafının yüksəldilməsində, eyni zamanda istehsal və sosial infrastrukturun müasir tələblərə uyğunlaşdırılmasında əhəmiyyətli amil hesab olunur. Belə inkişaf kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqədə olan sahələrdə fasiləsiz iqtisadi artımın təmin edilməsinə yönəldilmiş tədbirlərin məcmusunu özündə əks etdirir (Əhmədov, 2010: 4). Beləliklə, kənd təsərrüfatı istehsalının səmərəliliyini artırmaq və ərzaq təhlükəsizliyini yalnız yüksək inkişaf etmiş maddi-texniki bazanın fəaliyyət göstərməsi və onun yenilənməsi, yəni təsərrüfatların yeni mühəndislik məhsulları ilə modernləşdirilməsi və texnikanın yenidən təchiz edilməsi, mexanikləşdirmə və avtomatlaşdırma maşınları kompleksinin yaradılması əsasında təmin etmək mümkündür. Modernləşmə innovativ inkişaf modelinə keçməyə imkan verir, qlobal iqtisadi böhranın mənfi nəticələrini kompensasiya edir və kənd təsərrüfatı mühəndisliyi, bitkiçilik və heyvandarlıq istehsalı və emal sənayesində qabaqcıl texnologiyaların geniş tətbiqi ilə yerli kənd təsərrüfatının rəqabət qabiliyyətini artırır. İnnovasiyaya dövlət dəstəyi, investisiya ehtiyatlarını kənd təsərrüfatının prioritet sahələri üzərində cəmləşdirə biləcək effektiv mexanizmin təşkili, kənd təsərrüfatı sektorunda yeniliklərin tətbiqi üçün şərait yaradılması və innovasiya üçün kadr hazırlığı məsələlərinə xüsusi diqqət yetirilməlidir (8).

## Ədəbiyyat

1. Aliyev, İ.H. (2007). "Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri. Bakı: Elm, 400 s.
2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Strateji Yol Xəritəsi".
3. Əhmədov, G. (2010). Aqrar sahə iqtisadiyyatının innovasiya yönümlü inkişafını təmin edən strategiya. Xalq qəzeti. 16 fevral. s.4.
4. "Azərbaycan Respublikası regionlarının 2004-2008, 2009-2018, 2014-2018, 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı". Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
5. İbrahimov, İ.H. (2002). Aqrar iqtisadiyyatın aktual problemləri. Bakı: Təhsil EİM, 190 s.
6. Şəkərəliyev, A.Ş. (2009). Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı: İqtisad Universiteti, s.334.
7. Quliyev, E. (2015). Aqrar iqtisadiyyat. Bakı: "Kooperasiya" nəşriyyatı. s.30.
8. www.aqrar.gov.az

Göndərilib: 15.09.2023 Qəbul edilib: 18.11.2023

DOI: https://doi.org/10.36719/2789-6919/27/40-43

**Sevda Tağıyeva**
Azərbaycan Dillər Universiteti
sevdatagiyeva804@gmail.com

# HƏSƏN BƏY ZƏRDABİNİN MAARİFÇİLİK FƏALİYYƏTİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

## Xülasə

Təhsilimizn və pedaqoji fikrimizin keçmişini öyrənmək, onun hazırkı vəziyyətinə də nəzər yetirmək təhsil tariximizin, pedaqoji fikrimizin hər zaman aktual problemidir. Keçmiş irsimizə nəzər saldıqda bu günün nailiyyətlərinin keçmişdən qidalandığını, ondan qüvvət aldığını da görmək olur. Bu gün müdrikcəsinə deyilmiş bir fikrin keçmiş mütəfəkkirlərimiz tərəfindən bu və ya digər formada deyildiyini də görmək olur. Keçmişlə müasirliyi düzgün uzlaşdırmadan, onu düzgün dəyərləndirmədən, müqayisə etmədən bugünkü məktəbimizin və pedaqoji fikrimizin səviyyəsini müəyyənləşdirmək çətin olar. Məqalədə mütəfəkkir alim Həsən bəy Zərdabinin maarifçilik fəaliyyəti araşdırılaraq təhlilə cəlb edilmişdir.

***Açar sözlər:*** *maarifçi, pedaqoji, mətbuat, təhsil, elm*

**Sevda Taghiyeva**
Azerbaijan University of Languages
sevdatagiyeva804@gmail.com

## Main characteristics of Hasan bey Zardabi's educational activity

## Abstract

Studying the past of our education and pedagogical thought, looking at its current situation is always an actual problem of our educational history and pedagogical thought. When we look at our past heritage, we can see that today's achievements are nourished by the past and get strength from it. It can be seen that an idea that is not wisely said today was said by our past thinkers in one form or another. It will be difficult to determine the level of our current school and pedagogical thought without properly harmonizing the past with modernity, evaluating it correctly, and comparing it. In the article, the intellectual activity of the thinker scientist Hasan Bey Zardabi is investigated and included in the analysis.

***Keywords:*** *educator, pedagogy, press, education, science*

## Giriş

Müdriklər yaxşı demişlər ki, keçmişi unutmaq olmaz, çünki o, gələcəyin müəllimidir. Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadə deyirdi ki, biz tariximizi ona görə öyrənirik ki, gələcəkdə səhvlər etməyək. Elmimizin bir çox sahələrində gələcək üçün zəmin təşkil edən bu günün ağıllı, qabaqcıl fikirləri keçmişin mütərəqqi irsi ilə sıx bağlıdır. Təhsil və pedaqoji fikrin keçmişini öyrənmək onun gələcək perspektivlərini də öyrənməyə kömək edir.

Yalnız xalqımızın istiqlaliyyəti, ölkəmizin müstəqilliyi sayəsində öz milli mədəni və mənəvi irsimizi dərindən öyrənməyə, ətraflı tədqiq etməyə və yeni pedaqoji təfəkkür işığında baxmağa imkan yaranmışdır. Biz bu imkandan istifadə edərək bu mənəvi xəzinəni uzun dövr ərzində səbrlə araşdırmış, böyük mütəfəkkirlərimizi, ortaq türk dünyasının fikir adamlarını, onların həyat və yaradıcılıqlarını, pedaqoji fikir, düşüncə və fəaliyyətlərini, əsərlərini diqqətlə öyrənmiş, məktəb və pedaqoji fikir tariximizdə onların yerini, dəyər və qiymətini əlimizdən gəldiyi qədər göstərmişik. Bütün bünlar məktəb və pedaqoji fikir tariximizi zənginləşdirdiyi kimi, müasir pedaqoji nəzəriyyəni də inkişaf etdirir və insanlarda yeni zehniyyət, yeni pedaqoji təfəkkür, milli iftixar, milli şüur, milli birlik yaradır. Digər tərəfdən müasir qloballaşma dövründə gənc nəslimiz öz soykökünü, kimliyini

öyrənir, əslindən uzaq düşmür, tariximizi bu günümüz kimi öyrənir, tariximizlə fəxr edir və onunla yaşayır, tərbiyələnir. Bütün bunlar da təhsilimizin milli zəmin üzərində qurulması tələblərindən irəli gəlir (Əhmədov, 1997: 54). Həsən bəy Zərdabi Azərbaycanın maarif mücahidi, görkəmli ziyalısı, Moskva Universitetini bitirən ilk müsəlman türk məzun, Azərbaycanda ilk universitet təhsilli alim və müəllim, İslam aləminin ilk təbiətşünas alimi, Bakı Gimnaziyasının ilk müsəlman türk müəllimi, Azərbaycanda və bütün müsəlman Şərqində xeyriyyəçilik hərəkatının banisi və "Cəmiyyəti-Xeyriyyə"nin qurucusu (1872-ci il), 1873-cü ildə öz şagirdləri ilə birlikdə Bakıda Azərbaycan türk dilində ilk teatr tamaşası göstərən mədəniyyət xadimidir. Həsən bəy öz qiymətli həyatını xalqın savad alması və maariflənməsinə sərf etmişdi. O, Azərbaycanda ilk qızlar gimnaziyasının açılmasının təşəbbüskarı, təşkilatçısı, 1906-cı ildə Bakıda Azərbaycan Müəllimlərinin Birinci Qurultayının təşkilatçısı və qurultayın sədri olmuşdur (Əhmədov, 2011: 18).

Həsən bəy Azərbaycan mətbuatının banisidir. O, ana dilimizdə Azərbaycan milli mətbuatını yaratmış və 1875-1878-ci illərdə "Əkinçi" adında Rusiyada ilk türkdilli qəzeti nəşr etmişdir. "Əkinçi" qəzeti Azərbaycanda pedaqoji elmin inkişafında böyük rol oynamışdır. Qəzetin elə bir nömrəsi olmamışdır ki, orada maarifin, təhsilin, elmin təbliğinə yer verilməsin. H.B.Zərdabi qəzet vasitəsilə üzünü ziyalılara tutub onları məktəb açmağa, elm, maarif və tərbiyə ilə məşğul olmağa çağırırdı. O, adını Azərbaycan mədəniyyət tarixinə qızıl hərflərlə yazdıran dahi ziyalı, böyük təbiətşünas alim, pedaqoq, naşir və nasirdir. Onun babası Rəhim bəy və Səlim bəy o dövrün gözüaçıq adamlarından olmuşdur. Hər ikisi çar ordusunun zabiti olmuşdur. Həsən bəy ilk təhsilini mollaxanada almış, 1852-ci ildən isə atasının istəyi ilə rus dilində savad verən 4 sinifli Şamaxı şəhər məktəbində oxumağa başlamışdır. Məktəbin son sinfində o, cavabları ilə imtahan komissiyası üzvlərini elə heyrətləndirmişdi ki, Qafqaz Təhsil Dairəsinin rəisi baron Nikolay Həsən bəyin təhsilini dövlət hesabına Tiflis gimnaziyasında davam etdirməsi təklifini vermişdi. O, yaxın qohumu, general Fərəc bəy Ağayevin köməyi ilə gimnaziyada təhsilini davam etdirmişdir.

1860-cı ildə gimnaziyanı uğurla bitirən Həsən bəy Moskva Universitetinin fizika-riyaziyyat fakültəsinin təbiətşünaslıq bölməsinə daxil olmuşdur. Burada təhsil aldığı 1861-1865-ci illərdə o, böyük mənəvi inkişaf yolu keçmiş, özünün yüksək mədəniyyəti və istedadı ilə universitetin müəllim və tələbələri arasında dərin hörmət qazanmışdı. XIX əsrin II yarısında Şimali Azərbaycanda maarifçilik ideyalarının başçısı, bu ideyaları əməli surətdə həyata keçirmək üçün yorulmadan təşəbbüs göstərən ziyalı Həsən bəy Zərdabi idi (Mir Cəlal, 1973: 66).

Dövlət məmuru, məhkəmə katibi, gimnaziya müəllimi kimi müxtəlif vəzifələrdə çalışan Həsən bəy Zərdabi xalqı qəflət yuxusundan oyatmaq, onu maarif və mədəniyyətə qovuşdurmaq üçün milli mətbuata böyük ehtiyac olduğunu görürdü. O, 1870-ci ildən başlayaraq Azərbaycan dilində qəzet nəşrinə icazə almaq üçün Qafqazın rəsmi dairələrinə dönə-dönə müraciət etmişdi. Lakin dövlət məmurları Həsən bəyin xahişini hər dəfə müxtəlif bəhanələrlə rədd edir, istəyinin qarşısına keçilməz sədlər çəkirdilər. Buna baxmayaraq, Həsən bəy əzmi, iradəsi ilə bütün maneələri üstələdi, qəzetin müstəsna hal olaraq Bakıda senzuradan keçilməsinə icazə aldı. İstanbuldan mətbəə hürufatı gətirdi və beş illik mübarizədən sonra Həsən Bəy Zərdabi 1875-ci il iyul ayının 22-də ilk milli Azərbaycan qəzeti olan "Əkinçi"nin birinci nömrəsini çap etməyə müvəffəq oldu. Rusiya imperiyasında yaşayan bütün türk-müsəlman əhalisinin birinci mətbuat orqanı olan "Əkinçi"nin nəşrə başlaması ilə ölkənin sosial-mədəni həyatında bir canlanma əmələ gəldi, demokratik ideyalar daha sürətlə yayılmağa başladı. Azərbaycanın mərkəzi şəhəri kimi Bakının sürətli inkişafı Həsən bəydə milli mətbuatın yaranma zərurətini yaratmışdır. Ana dilində qəzetə böyük ehtiyac olduğunu dərk edən Həsən bəy Zərdabi qəzet çap etmək üçün hökumətə müraciət etmişdir. Bununla əlaqədar xeyli zəhmətdən sonra 22 iyul 1875-ci ildə Bakıda qubernator mətbəəsində Azərbaycan dilində "Əkinçi" qəzetinin nəşrinə müvəffəq olmuşdur. Bu qəzet ilə Azərbaycan milli mətbuatının əsası qoyulmuşdur. 22 iyul 1875-ci ildən 1877-ci ilin 29 sentyabr ayına qədər çapını davam etdirən "Əkinçi" qəzeti ayda iki dəfə 300-400 tirajla nəşr olunmuşdur. Bu illər ərzində qəzetin 56 nömrəsi işıq üzü görmüşdür. Maarifçi və demokratik ideyaların carçısı olan "Əkinçi" realist Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətlər göstərmişdir. Məhz buna görə də belə tərəqqipərvər qəzet mürtəce, işğalçı bir rejimin əsarəti altında çox yaşaya bilməmişdir. Çünki bu qəzet kəndlilərin

ağır həyat şəraitini, onların yarı ac, yarı tox dolanmalarını qabarıq şəkildə oxucuların nəzərinə çatdırırdı. "Əkinçi" öz səhifələrində xalq kütlələrini sosial fəallığa, yeni, müasir mədəniyyətə cəlb edirdi. Azərbaycanın qabaqcıl fikirli adamları Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani, Məhəmməd Tağı Əlizadə, Əhsənül-Qəvaid, Məhbus Dərbəndi və başqaları bu qəzet ətrafında birləşərək feodal patriarxal quruluşun, orta əsr geriliyinin, köhnə həyat formaları və adət-ənənələrinin əleyhinə çıxır, ictimai həyatın bütün sahələrində tərəqqi, yeniləşmə, təzələnmə ideyalarını irəli sürüdülər. Qəzet 2 həftədə bir dəfə çap olunurdu. Onun beş şöbəsi var idi: "Daxiliyyə", "Əkin və ziraət xəbərləri", "Məktubat", "Elm xəbərləri", "Təzə xəbərlər" idi. Onun əsas şöbəsi "Əkin və ziraət xəbərləri" idi. Burada əkinçilik, bağçılıq, bostançılıq, maldarlıq, ümumiyyətlə, kənd təsərrüfatı sahəsində çalışan adamlara faydalı məsləhətlər verilirdi. "Əkinçi"nin toxunduğu, təhlil və izahına ehtiyac duyduğu problemlər çox rəngarəng idi. Onun səhifələrində ictimai həyatın demək olar bütün sahələrinə dair yazılar dərc olunurdu. Orada çap edilən məqalələrdə iqtisadi, siyasi, mədəni, sosial, fəlsəfi, ədəbi-tənqidi, tibbi məsələlərdən söhbət açılır, geniş xalq kütlələrinə sağlamlığı qorumaq, torpağı becərmək, mal-qaranı bəsləmək, məhsuldarlığı artırmaq qaydaları barədə faydalı məsləhətlər verilirdi. "Bəs nə üçün "Əkinçi"? Əvvəla fərqli mülahizələri açıqlamazdan öncə, kulturologiyanın bəzi nəzəri əsaslarını xatırlayaq. Bilənlər bilir ki, Kulturologiya – Mədəniyyətşünaslıq haqqında elmdir. "Mədəniyyət" anlayışı isə latın mənşəli "Culture" sözündən dönmədir (Əhmədov, 2001: 109).

Antik dövrlərdə "Culture"nin ilkin hərfi mənası "torpağı becərmək", "emal (şum) etmək", "torpağı arıtlayıb yararlı hala salmaq", əkin-biçinə hazırlamaq, "becərmək" anlamındadır. Qədim dövrlərdə ilk yaranışında bu söz obyektdə insan əməyi ilə aparılan dəyişiklikləri ifadə etmək, əkin yerlərinin, torpaq sahələrinin və s. şumlandığını, sahmana salındığını bildirmək üçün istifadə edilib. İndinin özündə də "aqrokultura" sözü termin kimi mövcuddur. Zaman keçdikcə insan fəaliyyətinin nəticəsi olan "culture" ("kültür"- "kultura") sözünün məna və məzmun tutumu daha da dərinləşib. O yalnız praktiki fəaliyyəti deyil, həm də mənəvi fəaliyyət sahələrini əhatə etməyə başladı. Elmə maddi və mənəvi Mədəniyyət anlayışları daxil oldu. Beləcə torpağı becərmək, emal (şum) etmək, torpağı arıtlayıb (təmizləyib) yararlı hala salmaq, əkin-biçinə hazırlamaq, becərməklə yanaşı, artıq insan əlinin, zehninin, qəlbinin iştirakı ilə yaradılan bütün dəyərlər "Culture" – "Kültür" – "Kultura" – "Mədəniyyət" əlaməti kimi qəbul olunmağa başladı... Mədəni inkişaf dedikdə mövcud olan bütün dəyərlər sistemi, bütün yaradıcılıq sahələri, bütün elm, texnika, iqtisadiyyat, istehsalat, idarəetmə, səhiyyə, təhsil, ticarət, tikinti, yol, su, işıq, xidmət, təchizat… nəzərdə tutulur (Köçərli, 1985: 45).

Mədəni insan özünü deyil, özgəsini düşünərək yaşayan insandır. Çünki insanı vəhşilikdən ayıran məhz onun mədəni qazanclarıdır. İnsan varsa, mədəniyyət var, yaxud mədəniyyət yoxdursa, insan da yoxdur… İkincisi ondan ibarət idi ki, qəzetin məqsədi xalqı qəflət yuxusundan oyatmaq, maarifə, mədəniyyətə cəlb etmək idi. "Əkinçi" adı isə bu mövzulardan uzaq idi. Qəzetin adını "Əkinçi" qoymaqla senzuradan keçmiş oldu. H.B.Zərdabi inkişaf yollarında əsasən qabaqcıl Avropa təcrübəsindən bəhrələnməyi vacib sayırdı və "milli-dini özgürlük" bəhanəsi altında Qərbdən gələn yeniləşmə əlamətlərinin qarşısını kəsməyə çalışan gerizəkalıları kəskin tənqid atəşinə tuturdu. Dünyagörüşü etibarilə Avropa meylli olan H.B.Zərdabi çağdaş dövrlə səsləşməyən köhnə fikirlərin, mədəni geriliyin təzahürlərini aradan qaldırmağa çağırırdı. Bəlkə də təzadlı səslənər, ancaq çox vaxt xalqın həyatındakı, məişətindəki yaramaz situasiyaların kəskin tənqidi – xalqa olan böyük sevgidən irəli gəlir (Bəşirov, 2008: 78).

H.B. Zərdabi pedaqoji fəaliyyətlə məşğul olmuş, 1878-ci ildə Bakı Realni Məktəbində müəllim işləmişdir. 1879-1896-cı illərdə Zərdabda yaşamış, pedaqoji məqalələrlə çıxış etmiş, maaarifçiliklə məşğul olmuşdur. 1896-cı ildə Bakıya köçmüş, qız məktəbi açmaq istəmiş, amma baş tutmamış, "Kaspi" qəzetində əməkdaşlığa başlamışdır. Həsən Bəy Zərdabinin əxlaqi görüşləri diqqəti cəlb edir. Zərdabi cəhaləti, xürafat və mövhümatı tənqid edirdi. O, şəxsiyyətin tərbiyəsinə fikir verilməsini məqsədəuyğun sayır, mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi, xüsusən vətənpərvərlik və milli hisslərin qüvvətləndirilməsini lazım bilirdi. O, insan həyatının mənasını xalqına təmənnasız xidmətdə görür və bu barədə deyirdi: "Millətə və insaniyyətə xeyri olana bizlər çox aqil deyirik".

Həsən bəy Zərdabi vətəndaşları öz insanlıq ləyaqətini anlayıb başqaları tərəfindən alçaldılmasına, əzilməsinə, hüquqlarının ayaqlar altına atılmasına yol verməməyə çağırırdı. O, öz şərəfini, izzətini, hüquq və mənliyini qorumayan şəxsləri heyvandan belə aciz sayırdı. Həsən bəy Zərdabi qadın təhsilini, əxlaq, fiziki və əmək tərbiyəsini daim diqqət mərkəzində saxlayır, fiziki tərbiyəni bir pedaqoji problemdən savayı, həm də ictimai problem kimi, fiziki tərbiyəni zehni və əxlaqi tərbiyə ilə vəhdətdə nəzərdən keçirirdi. H.Zərdabi əqli, əxlaqi, hissi-estetik tərbiyə və əmək tərbiyəsinə yüksək əhəmiyyət verir və deyirdi ki, bunların arasında qarşılıqlı əlaqə vardır. Zərdabiyə görə, düzgün təşkil edilən və şüurlu surətdə müəyyən məqsədə doğru yönəldilən əmək vasitəsi ilə pozulmuş adamları, hətta cinayətkarları da tərbiyə etmək olar. Əl əməyi uşaqların əxlaqını saflaşdırır, təkmilləşdirir, onlarda təvazökarlıq və hörmət, işgüzarlıq, vətənpərvərlik, əməksevərlik və başqa insani sifətləri tərbiyə edir. O, məktəblərdə çilingərlik, xarratlıq emalatxanaları yaratmağı, kənd şəraitində də uşaqları maldarlıq, tarlaçılıq işləri ilə tanış etməyi zəruri sayırdı. Həsən bəy Zərdabi vətənpərvərliyi yüksək qiymətləndirir və həyatın mənasını xalqa xidmət etməkdə görürdü. O, gənclərə müraciətində deyirdi ki, əsl vətənpərvər o adamdır ki, vətəninə, xalqına təmənnasız kömək edir, heç bir mükafat gözləmir, vətənin şöhrət və qüdrətini, rifah halını artırır (Əhmədov, 2006: 78). H.Zərdabi məktəb və tərbiyəni ailədən, ailə tərbiyəsindən ayırmır, o ailənin uşağın tərbiyəsindəki roluna xüsusi diqqət yetirirdi. Zərdabiyə görə, ata və analar övladlarının tərbiyəsinə xüsusi qayğı göstərməli, onları düzgün tərbiyə etməlidirlər. Zərdabiyə görə, tərbiyənin də, tərbiyəsizliyin də ilk mənbəyi ailədir. Buna görə də məktəb ailəyə kömək etməli, övladlarının tərbiyəsində çətinlik çəkən valideynlərə pedaqoji məsləhətlər verməlidir. H.Zərdabi gənc nəslin sağlamlığına, fiziki tərbiyəsinə xüsusi diqqət yetirir və deyirdi ki, naxoşluq haqqında nalə çəkməkdənsə, sağlamlığın qayğısına qalmaq lazımdır. Zərdabi təmiz havanı, suyu, günəş işığını sağlamlığın zəruri şərti hesab edirdi (Əhmədov, 2015: 309).

Zərdabi sağlamlıq və fiziki tərbiyə haqqında fikirlərini tibbə dair əsərlərində şərh etmişdir. Zərdabi deyirdi ki, hər bir kəs xoşbəxt olmaq istəyirsə, sağlam olmağa çalışmalıdır. Səlamətlik bədən üçün böyük nemətdir. Xoşbəxtlik mal-dövlətə deyil, bədənin sağlamlığındadır. Buna görə də bədənin sağlamlığına uşaqlıq və gənclik çağlarından qayğı göstərilməlidir. H.Zərdabi bədəni salamat saxlamaq üçün zəruri olan gigiyenik qaydaları da geniş təhlil etmişdir. Onun fikrincə, insan üçün piyada gəzmək çox vacibdir. O, dərini təmiz saxlamağı vacib sayır və deyirdi ki, bunun üçün hər gün çimmək salahdır, çünki bədən isti-soyuğa adət edir. Dəniz suyu ilə çimmək bədəni bərkidir, iştahanı açır, yorğunluğu alır. Zərdabi sağlamlığın qorunmasında yuxuya xüsusi diqqət yetirmişdir. İnsanın yorğunluğunu almaq üçün dincəlməsi, yuxu çox vacibdir. H.Zərdabi tərbiyə məsələsinə vacib pedaqoji problem kimi baxmışdır. O, fiziki tərbiyəyə isə ictimai problem kimi baxmışdır. O, əməyi fiziki tərbiyənin tərkib hissəsi hesab edir və deyirdi ki, fiziki tərbiyə şəxsiyyətin ahəngdar inkişafının mühüm şərtlərindən biridir.

## Ədəbiyyat

1. Əhmədov, H. (1997). Azərbaycanda Xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti. Bakı, 244 s.
2. Əhmədov, H. (2011). Azərbaycan pedaqoji antologiyası. (XIX əsr-XX əsrin əvvəlləri). Bakı: Maarif, 252 s.
3. Mir Cəlal. (1973). Klassiklər və müasirlər. 199 s.
4. Əhmədov, H. (2001). Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Təhsil. Elm, 329 s.
5. Köçərli, F. (1985). Azərbaycan ədəbiyyatı. 233 s.
6. Bəşirov, V.P. (2008). Azərbaycan maarifpərvərlərinin mütərəqqi pedaqoji ideyalarının inkişafı (1870-1920-ci illər). 209 s.
7. Əhmədov, H. (2006). XIX əsr Azərbaycan məktəbi. Bakı: Təhsil, 198 s.
8. Əhmədov, T. (2015). Həsən bəy Zərdabi. Bakı: Nurlar, 309 s.

Göndərilib: 05.09.2023 Qəbul edilib: 16.11.2023

DOI: https://doi.org/10.36719/2789-6919/27/44-48

**Fəxriyyə İbrahimova**
Azərbaycan Dövlət Aqrar Universiteti
abdullayevafexriyye23@gmail.com

# VERGİ İNZİBATÇILIĞININ RƏQƏMSALLAŞDIRILMASI

## Xülasə

Müasir zamanda bəşəriyyət texnoloji innovativ həyat tərzinə uyğunlaşıb və sosial şəbəkələrdən, messencerlərdən, uzaqdan təhsil formatından, GPS-dən, internet-ticarətdən, onlayn dövlət xidmətlərindən, internet-bankinqdən istifadə edir. Təbii ki, iqtisadi münasibətlər də bu meyllərdən geri qalmamışdır.

Rəqəmsal transformasiya maliyyə sisteminə də toxunmuşdur. Bu bir tərəfdən konsepsiya, model, metod, mexanizm və alətlərin modifikasiyası yolu ilə baş vermiş, digər tərəfdən isə buna rahatlıq, vaxta qənaət və təhlükəsizliyi təmin etməklə nail olunmuşdur. Kontaktsız qarşılıqlı əlaqə vergi münasibətlərinin əsası olmağa başlamışdır. Tədqiqatlardan görünür ki, ciddi qanun normalarına əsaslanan vergi inzibatçılığı sistemi rəqəmsal mühitdə fəaliyyət göstərir ki, bu da vergi ödəyiciləri ilə ünsiyyəti asanlaşdırır. Tədqiqat işimizin məqsədi vergi inzibatçılığının rəqəmsallaşdırılması prosesini araşdırmaqdan və fəaliyyət göstərən vergi inzibatçılığı sisteminin prinsiplərini formalaşdırmaqdan ibarətdir.

***Açar sözlər:*** *vergi, vergi inzibatçılığı, rəqəmsal transformasiya, elektron vergi xidmətləri, kölgə iqtisadiyyatı, vergi yükü, diversifikasiya, şəffaflıq*

**Fakhriyya Ibrahimova**
Azerbaijan State Agrarian University
abdullayevafexriyye23@gmail.com

## Digitization of tax administration

## Abstract

In modern times, humanity has adapted to a technologically innovative lifestyle and uses social networks, messengers, distance education formats, GPS, internet commerce, online government services, and internet banking. Of course, economic relations have not lagged behind these trends.

Digital transformation has also touched the financial system. On the one hand, this happened through the modification of the concept, model, method, mechanism and tools, and on the other hand, it was achieved by providing convenience, time saving and safety. Contactless interaction has become the basis of tax relations. Research shows that the tax administration system based on strict legal norms operates in a digital environment, which facilitates communication with taxpayers. The purpose of our research work is to investigate the process of digitalization of tax administration and to formulate the principles of a functioning tax administration system.

***Keywords:*** *tax, tax administration, digital transformation, electronic tax services, shadow economy, tax burden, diversification, transparency*

## Giriş

XX əsrin sonları - XXI əsrin əvvəllərində dünya iqtisadiyyatının inkişafına xas olan əsas meyllərdən biri və birincisi sənaye iqtisadiyyatından post sənaye iqtisadiyyatına keçid və iqtisadiyyatın rəqəmsallaşmasıdır, yəni informasiya kommunikasiya texnologiyalarından istifadəyə əsaslanan iqtisadiyyata keçid baş verir. Bu dövr ictimai və maliyyə həyatında informasiyanın və rəqəmsal vasitələrin əhəmiyyətinin artması ilə səciyyələnir. Maliyyə həyatını mühüm bir hissəsi olan vergilər büdcə sisteminin əsas gəlir maddəsidir, xərc öhdəliklərinin təmin edilməsinin, maliyyə dayanıqlılığının və təhlükəsizliyinin əsasıdır. Vergi yükünün daşıyıcıları isə vergi ödəyiciləridir.

Onlardan bəziləri vergi öhdəliklərini ədalətli saymırlar və ona əlavə xərc kimi baxırlar, bu səbəbdən də vergini ödəməkdən yayınırlar. Belə hallar vergi nəzarətində olmayan "kölgə" iqtisadiyyatının yaranmasına gətirib çıxarır. Bu isə vergi, büdcə sisteminə və müvafiq olaraq iqtisadi inkişafa mənfi təsir göstərir. Kölgə iqtisadiyyatının yaranmasının qarşısını almaq və belə hallara nəzarət edib uçota almaq üçün vergi inzibatçılığı sistemi vardır və onun rəqəmsallaşdırılması vergi tutma prosesini çevik, aydın, şəffaf, tam və qaçılmaz etməyə imkan verəcəkdir.

Dövlətin vergi sisteminin rəqəmsal transformasiyası ölkə iqtisadiyyatının idarə olunmasının ən səmərəli üsullarından biridir. Hal-hazırda bütün dünyada və həmçinin bizim ölkədə vergi sistemlərinin inkişaf etmiş avtomatlaşdırılmış sistemləri var ki, bu da məlumatın daima artan həcmini səmərəli şəkildə emal etməyə imkan verir. Vergi inzibatçılığının rəqəmsallaşdırılması sadəcə vergi sahəsində yeni texnologiyaların istifadəsi deyil, o həm də vergi oranları və vergi ödəyiciləri arasında qarşılıqlı əlaqələrin yeni daha yüksək səviyyəsidir. Vergi sistemi üçün təkcə öz işində ən müasir informasiya texnologiyalarını tətbiq etmək deyil, həm də müasir etik münasibətlər qurmaq da vacibdir.

Müasir İKT gələcəyi formalaşdırır və bu gün çox şey rəqəmsal platformalardan asılıdır. Onların vasitəsilə vergi ödəyicilərinə vergi inzibatçılığını tətbiq etmək, yəni vergi ödəyiciləri üçün vahid şəxsi kabinet texnologiyalarını yaratmaq imkanları yaranır və artır. Kontaktsız inzibatçılıq texnologiyası yaradılmışdır, yəni vergi ödəyicilərinin şəxsi kabineti vasitəsilə milyonlarla vətəndaşın vergi ödəməsi mümkün olmuşdur. Daha vergi sistemi sadəcə fiskal orqan deyil, indi o, vətəndaşları vicdanla vergi ödəməyə stimullaşdırır və bunu komfort şəraitdə təşkil edir.

Biznes və vergi orqanları arasında münasibətlər yeni rəqəmsal məkanda qurulur. Rəqəmsal transformasiya vergi xidmətinin işini təkmilləşdirməyə imkan verir və vergi orqanlarının vergi ödəyiciləri ilə qarşılıqlı əlaqələrini asanlaşdırır. Vergi xidmətlərinin fəaliyyətinə məlumat texnologiyalarının tətbiqi vergi ödəyicilərinin vergi axınlarını izləməyə, vergi ayırmalarının düzgünlüyünü yoxlamağa və vergidən yayınmağa istiqamətlənən sxemləri aşkar etməyə imkan verir (Qoncharenko, 2018: 166-172). Avtomatlaşdırılmış vergi məlumat sistemi vergi sistemində iqtisadi məlumat sistemidir və vergidə uçot, nəzarət və hesabat məlumatlarının avtomatlaşdırılması üçün istifadə edilən texniki, təşkilati və proqram vasitələrinin məcmusudur.

Vergi inzibatçılığı dövlətin səlahiyyət verdiyi orqanın təşkilatların və fiziki şəxslərin vergi və yığımlar barədə qanunvericiliyə nə dərəcədə riayət etmələrinə nəzarətin təmin edilməsi üzrə fəaliyyətidir. Vergi inzibatçılığı sistemində dövlətin vergi münasibətləri sahəsində nəzarət funksiyasının reallaşdırılması səlahiyyətli orqanlar tərəfindən həyata keçirilir (Romanov, Kolchin, 2017: 525).

Rəqəmsallaşma şəraitində səmərəli vergi sisteminin qurulması üçün inkişaf etmiş xarici ölkələrin təcrübəsindən istifadə etmək məqsədəuyğundur. Bu ölkələrdə vergi sisteminin rəqəmsal transformasiyası aşağıdakı istiqamətlərdə aparılmışdır: vergi inzibatçılığı və nəzarət prosesinin rəqəmsallaşdırılması; vergiqoymanın və yeni obyektlərin və əməliyyatların vergiyə cəlb olunması mexanizminin normativ-hüquqi bazasının işlənib hazırlanması; rəqəmsal iqtisadiyyatda beynəlxalq vergitutmanın vahid prinsip və üsullarının işlənib hazırlanması. Bir çox ölkələrin vergi xidmətləri vergi ödəyicilərinə xidmət göstərmənin yaxşılaşdırılması üçün vergi inzibatçılığı və nəzarəti prosesində dövlət xidmətlərinin təqdim olunmasında keyfiyyəti və sürəti artıran informasiya texnologiyalarından fəal şəkildə istifadə edirlər.

Dünyada rəqəmsal transformasiyanı həyata keçirməyə imkan verən texnologiya və xidmətlərə çəkilən qlobal xərclər üç trilyon dolları keçib və 2035-ci ilə qədər 13 trilyon ABŞ dollarına çatacağı proqnozlaşdırılır. Süni intellekt bazarının həcminin isə 2030-cu ilə 15 trilyon olması gözlənilir (Mandroshenko, 2021: 152-158).

Rəqəmsal iqtisadiyyatın tətbiqində ən mütərəqqi ölkələr – ABŞ, Çin, Böyük Britaniya, İsrail, Yeni Zelandiya, Cənubi Koreya, Estoniya – blokçeyn texnologiyalarının tədqiqi və tətbiqi üzrə dövlət proqramlarını işləyib hazırlayırlar və maliyyələşdirirlər. Həmin texnologiya vətəndaşlara onların məlumatlarının təhlükəsiz yerdə qorunub saxlanacağına dair zəmanət verməyə imkan verir.

Bu onlara dövlətin və vətəndaşların üzərinə inzibati yükü azaldan elektron biznes reyestr və elektron vergi kimi elektron xidmətləri işə salmağa imkan verdi (Qolovenchik, 2020).

Bu sahənin kapitallaşdırılmasının miqyası dünya dövlətlərini texnoloji tərəqqiyə, mütərəqqi texnologiyalarla bağlı intellektual mülkiyyətə əlçatanlığı genişləndirməyə sövq edir. Dünyada üstünlük təşkil edən meyllərdən geridə qalmamaq üçün rəqəmsal transformasiya bizim ölkə üçün də şübhəsiz ki, vacibdir.

Bildiyimiz kimi, Azərbaycanda qeyri-neft sektorunun diversifikasiyasına və onun yeni texnologiyaların tətbiqi vasitəsilə rəqabət qabiliyyətinin yüksəldilməsinə, habelə bütün iqtisadi və maliyyə proseslərinin maksimal dərəcədə rəqəmsallaşdırılmasına yönələn islahatlar davam edir. Fiskal sahədə dəyişikliklərin edilməsi, vergi qanunvericiliyinin və inzibatçılığı sisteminin rəqəmsal transformasiya mexanizmlərinin tətbiqini nəzərə alaraq optimallaşdırılması, dövlət-biznes əməkdaşlığının səviyyəsinin və şəffaflığının yüksəldilməsi bu strategiyanın ən vacib komponentləridir

Bu gün dünyanın bütün ölkələrində rəqəmsal transformasiya həyata keçirilir və bunun nəticəsində həm bütün cəmiyyət, həm də iqtisadiyyat inkişaf edir. Müxtəlif texnologiyaların sürətli inkişafı cəmiyyəti və təsərrüfatçılıq subyektlərini öz iş prinsiplərini mütəmadi olaraq yeniləşdirməyə, sahə texnologiyalarını modernləşdirməyə sövq edir (Mironova, Xanafeyeva, 2014: 36-41).

Elektron hökumət texnologiyalarının tətbiqi dövlət aparatının fəaliyyətinin saxlanması və maliyyələşdirilməsi xərclərini azalda bilər, müvafiq olaraq vergi ödəyicilərinin vəsaitlərinə qənaət etməyə imkan verər və dövlət idarəetmə orqanlarının işinin şəffaflığını artırar (Qolovenchik, 2020).

Belə dəyişikliklər bir neçə illərdir ki, Azərbaycanda da həyata keçirilir. Burada dövlət xidmətlərinin xeyli hissəsi elektron formatda həyata keçirilir, rəqəmsal imza mexanizmləri tətbiq edilib, kommunal sektorun və fiskal sahənin xidmətləri rəqəmsallaşdırılıb, rəqəmsal hökumət platforması yaradılıb fəaliyyət göstərir və s. Bu iş hələ də davam etdirilir. Onların məntiqi davamı Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr 2022-ci ildə imzaladığı “Rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və əlaqə sahəsində idarəetmənin təkmilləşdirilməsi üzrə bəzi tədbirlər” barədə sərəncam olmuşdur (“Rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və əlaqə sahəsində idarəetmənin təkmilləşdirilməsi üzrə bəzi tədbirlər” barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 11 oktyabr 2022-ci il).

Vergi inzibatçılığının təkmilləşdirilməsinə dair Dövlət proqramının reallaşdırılması nəticəsində elə bir sistem formalaşdırılmışdır ki, vergi nəzarətinin gücləndirilməsinə imkan verdi və “elektron deklarasiyalar” sisteminin tədbiqinə başlandı (Sadıqov, Maqerramov i dr., 2020: 460).

Yuxarıda qeyd etdiyimiz kimi, Respublikada kontaktsız inzibatçılıq texnologiyası yaradılmışdır, yəni vergi ödəyicilərinin şəxsi kabineti vasitəsilə milyonlarla vətəndaşın vergi ödəməsi mümkün olmuşdur. Ölkə vətəndaşları vergi ödəyicisi qismində qeydiyyatdan keçdikdən sonra şəxsi kabinetlərinə çıxış əldə edirlər. Şəxsi kabinetlərdə hesabat təqdim etmək və elektron şəkildə deklarasiya göndərmək imkanları nəzərdə tutulmuşdur. Ölkədə bank kartları ilə vergi ödəmək və ya şəxsi kabinetdə olan məlumat əsasında ödəniş sənədlərini formalaşdırmaq imkanı reallaşmışdır (Realizasiya tsifrovoqo potensiala v Severnoy i Tsentralnoy Azii. Rabochiy dokument Subregionalnoqo otdeleniya dlya Severnoy i Tsentralnoy Azii, 2020: 35). Bundan başqa, Azərbaycanda vergi ödəyicilərinin şəxsi kabinetinin maksimal cari funksional xidmətlərlə mobil qoşmaları işlənib hazırlanmışdır.

Azərbaycanın «Asan İmza» layihəsi sahibkarlara mobil telefonun köməyi ilə dünyanın hər tərəfindən razılaşmaları imzalamağa, vergi öhdəliklərini yerinə yetirməyə, fiziki və hüquqi şəxslərin qeydiyyatını həyata keçirməyə və s. imkan verir. “Asan İmza” sim kartının köməyi ilə sertifikatlaşdırma üzrə xidmətləri təqdim etmək məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Asan sertifikasiya mərkəzi yaradılmışdır.

Yuxarıda qeyd edildiyi kimi, dövlətin vergi inzibatçılığı vergi ödəyicilərinə keyfiyyətli və səmərəli xidmət göstərmək üçün elektron xidmətləri inkişaf etdirir. Rəqəmsal transformasiya üzrə səylər görünən nəticələr verir: vergi daxilolmaları əhəmiyyətli dərəcədə artır. Belə ki, 2021-ci ildə

vergi daxilolmaları ötən illə müqayisədə proqnoz verilən rəqəmdən 117,6% yüksək olmuşdur, 2020-ci illə müqayisədə isə 15,5% artıq olmuşdur. Qeyri-neft sektorunda vəziyyət daha da yaxşı olmuşdur. Belə ki, burada vergi ödənişləri 6,4 milyard manat olmuşdur, bu, verilən proqnozu 112,1% üstələmişdir, 2020-ci ildə olan yığımlardan isə 13,4% artıq olmuşdur. 2022-ci ildə isə büdcəyə vergi daxilolmaları 2021-ci illə müqayisədə 65% artmışdır. Bununla da 2021-ci ildə Azərbaycan büdcəsinə ümumi vergi daxilolmaları 12,6 milyard manat (büdcə daxilolmalarının 47,4%), 2022-ci ildə isə 20, 9 milyard manat (büdcə daxilolmalarının 67,6%) olmuşur (9).

## Nəticə

Tədqiqat nəticəsində belə bir qənaətə gəldik ki, rəqəmsal iqtisadiyyatın inkişafı istehsal sahələri ilə yanaşı, maliyyə xidmətləri və vergi münasibətlərinə də təsir etmişdir. Aşkar edilmişdir ki, Azərbaycanın vergi inzibatçılığı sistemi vergi ödəyiciləri üçün rahat, real vaxt rejimində işləyən olmuşdur.

Bu öz növbəsində vergi orqanlarının işinin nəticəliliyini yüksəltmişdir, şübhəli əməliyyatlar riskini aşağı salmışdır, vergi ödəyicilərinin dairəsini genişləndirmişdir. Qeyd etmək lazımdır ki, yuxarıda qeyd edilən pozitiv proseslər kölgə iqtisadiyyatının miqyasının azalması, əmək müqavilələri sahəsinin leqallaşması, nağdsız ödənişlərin artması, dövlət və biznes arasında münasibətlərin şəffaflaşması ilə dəstəklənən vergi inzibatçılığının rəqəmsal transformasiyası fonunda baş vermişdir. Son bir neçə il ərzində dövlət vergi xidmətinin fəaliyyətinin rəqəmsallaşdırılmasında sürətli inkişaf baş vermişdir ki, bu da vergi xidmətlərinin göstərilməsini sadələşdirmişdir. Nəticədə qeyri-neft sektorundan vergi daxilolmalarında könüllü ödəmələrin xüsusi çəkisi 90%-ə yaxınlaşmışdır.

Müşahidə olunan tərəqqiyə elektron alətlərin tətbiqi ilə yaradılan rəqəmsal platformalar öz töhfəsini verir. Dövlət vergi xidmətinin elektron xidmətlərinin genişləndirilməsi üzrə islahatlar davam edir, son zamanlar e-taxes adlı yeni portal işə salınıb. Bu platforma əsasında sahibkarlıq fəaliyyətinin daha səmərəli şəkildə aparılması üçün əlavə alətlər yaradılır və sahibkarların vergi orqanları ilə birbaşa əlaqəsi təmin olunur.

Lakin cəmiyyətin rəqəmsal transformasiyasının müəyyən edici amili onun templəri və internet xidmətlərin kommersiya strukturlarını və ictimai institutları nə qədər tam əhatə etməsidir. Burada Azərbaycan əhəmiyyətli islahatlar həyata keçirməlidir ki, rəqəmsallaşmanın McKinsey Global Institute sahə indeksinə müvafiq olaraq bu sahədə ən qabaqçıl ölkələr olan ABŞ və Avropa İttifaqı ölkələrinin səviyyəsinə çata bilsin.

Bu, yerli bazarda kifayət qədər təqdim olunmayan idarəetmədə süni intellektin tətbiqi, istehsal proseslərinin robotlaşdırılması, kommunal sektorda əşyalar internetinin (IoT) kütləvi istifadəsi, elektron ticarətdə, bank və sığorta sektorlarında çat-botların istifadəsi kimi bir sıra istiqamətlərin inkişaf etdirilməsinə aiddir.

## Ədəbiyyat

1. Qoncharenko, L.İ. (2018). Aktualnıye problemı naloqovoy sistemı v usloviyax tsifrovoy ekonomiki. Ekonomika, nalogi, pravo, № 2. s.166–172.
2. Romanov, A.N., Kolchin, S.P. (2017). Nalogi i naloqooblojeniye. Uchebnoye posobiye. Moskva, 525 s.
3. Mandroshenko, O.V. (2021). Naloqovoye administrirovaniye d tsifrovoy ekonomike: perspektivı razvitiya. Ekonomicheskiye sistemı. T. 14, № 1 (52). s.152-158.
4. Qolovenchik, Q.Q. (2020). Tsifrovaya ekonomika: uchebno-metod. Kompleks. Minsk: BQU.
5. Mironova, O. A., Xanafeyeva, F.F. (2014). Naloqovoye administrirovaniye: razvitiye nauki i praktiki. Ekonomiçeskiy vestnik Yaraslavskoqo universiteta № 32. s.36-41.
6. “Rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və əlaqə sahəsində idarəetmənin təkmilləşdirilməsi üzrə bəzi tədbirlər” barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı, 11 oktyabr 2022-ci il.

7. Sadıqov, M.M., Maqerramov, R.B. i dr. (2020), "Nalogi i naloqooblojeniye v Azerbaydjane". Uchebnik dlya vuzov. Vtoroye izdaniye. «MM-C», Bakı, 460 s.
8. Realizasiya tsifrovoqo potensiala v Severnoy i Tsentralnoy Azii. Rabochiy dokument Subregionalnoqo otdeleniya dlya Severnoy i Tsentralnoy Azii. (2020), s.35.
9. https://www.stat.gov.az/

Göndərilib: 24.08.2023 Qəbul edilib: 28.10.2023

DOI: https://doi.org/10.36719/2789-6919/27/49-53

**Röyal Əliyev**
Azərbaycan Dövlət Aqrar Universiteti
royal.alisoy98@gmail.com

# AQRAR-SƏNAYE KOMPLEKSİ SUBYEKTLƏRİNİN MALİYYƏ SABİTLİYİNİN MAHİYYƏTİ, XÜSUSİYYƏTLƏRİ VƏ NÖVLƏRİ

**Xülasə**

Hər bir müəssisə üçün maliyyə vəziyyəti xüsusi əhəmiyyət kəsb edir. Aqrar-sənaye müəssisələrində maliyyə sabitliyi müəssisənin inkişafına təsir edir. Müasir iqtisadi şəraitdə aqrar-sənaye müəssisəsinin fəaliyyəti və inkişafı üçün maliyyə sabitliyi əsasdır. Maliyyə sabitliyi göstəriciləri əsasında müəssisənin inkişafı strategiyası və taktikası hazırlanır, onların icrasına nəzarət edilir, müəssisənin və onun bölmələrinin fəaliyyətinin nəticələri müəyyən edilir. Maliyyə sabitliyi müəssisənin maliyyə vəziyyətinin əsas göstəricilərindən biridir və tərifinə görə müəssisənin maliyyə müstəqilliyini qiymətləndirmək üçün istifadə edilə bilər.

***Açar sözlər:*** *maliyyə sabitliyi, aqrar-sənaye müəssisələri, kənd təsərrüfatı, iqtisadi amil, maliyyə-təsərrüfat fəaliyyəti*

**Royal Aliyev**
Azerbaijan State Agrarian University
royal.alisoy98@gmail.com

## The nature, characteristics and types of financial stability of the subjects of the agro-industrial complex

**Abstract**

The financial situation is of special importance for every enterprise. Financial stability in agro-industrial enterprises affects the development of the enterprise. Financial stability is the basis of the activity and development of an agro-industrial enterprise in modern economic conditions. On the basis of indicators of financial stability, development strategy and tactics of the enterprise are prepared, their implementation is monitored, and the results of the activity of the enterprise and its departments are determined. Financial stability is one of the main indicators of the financial condition of the enterprise and, by definition, can be used to assess the financial independence of the enterprise.

***Keywords:*** *financial stability, agro-industrial enterprises, agriculture, economic factor, financial-economic activity*

## Giriş

Müasir iqtisadi şəraitdə bir çox təşkilatlar şirkətin fəaliyyətinin maliyyə təminatında, onun işgüzar fəallığının artmasında və investisiya cəlbediciliyində strateji amil kimi maliyyə sabitliyinə xüsusi diqqət yetirirlər. Maliyyə sabitliyi təsərrüfat subyektinin maliyyə vəziyyətinin qiymətləndirildiyi əsas iqtisadi amillərdən biridir. O, bütün maliyyə-təsərrüfat fəaliyyəti prosesində formalaşır və təşkilatın ümumi dayanıqlığının əsas komponentidir.

Müəssisənin maliyyə dayanıqlılığı - sahibkarlıq subyektinin dəyişən daxili və xarici mühitdə fəaliyyət göstərmək və inkişaf etdirmək, aktiv və öhdəlikləri balansını saxlamaq, məqbul risk səviyyəsində daimi ödəmə qabiliyyətini və investisiya cəlbediciliyini təmin etmək qabiliyyətidir (Kravchenko, Tazhibov, 2012: 20).

Maliyyə sabitliyi müəssisənin maliyyə vəziyyətini nizamnamə kapitalından istifadənin kifayətliyi və səmərəliliyi baxımından xarakterizə edir. Müəssisənin maliyyə vəziyyətinin sabit olması üçün onun kifayət qədər nizamnamə kapitalına, keyfiyyətli aktivlərə, sabit gəlirə və yüksək

rentabelliyə malik olması lazımdır. Bu günə qədər tədqiqatçılar maliyyə sabitliyinə çoxlu sayda təriflər vermişlər. E.V. Litvinenko maliyyə sabitliyini, eyni zamanda, rəqiblərin, qarşı tərəflərin işi ilə sarsılmaz və bazar sabitliyindən asılı olmayaraq, şirkətin sabit təmin edilmiş ödəmə qabiliyyəti kimi şərh edir (Litvinenko, 2020: 96).

